

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 26 (24.461)

*12 iyul 2025-ci il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# 14 iyul 1969-cu il

# Azərbaycanın intibah tarixinin əsasının qoyulduğu gün



Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil görmək istəyən, vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan dahi Heydər Əliyevin mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışan Ümummilli Lider Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çatdırmaq üçün əlindən gələni əsirgəməmişdir.

Səhifə ➡ 2

## Akademik Yusif Məmmədəliyevin 120 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2025-ci ilin dekabr ayında görkəmli alim və ictimai xadim, Azərbaycan Respublikası Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, akademik Yusif Heydər oğlu Məmmədəliyevin anadan olmasının 120 ili tamam olur.

Akademik Yusif Məmmədəliyev Azərbaycan elminin yetirdiyi parlaq simalardandır. Azərbaycanda neft kimyasının bünövrəsini yaratmış alimin qiymətli sənaye məhsullarının alınması üçün böyük tətbiqi əhəmiyyətə malik texnoloji proseslərin işlənib hazırlanmasında müstəsna xidmətləri vardır. Neft-kimya elmində mühüm hadisəyə çevrilən yüksək oktanlı aviasiya yanacaqları istehsalının yeni üsulunu kəşf etməsi Yusif Məmmədəliyevə şöhrət qazandırmışdır. Respublikada bir sıra elmi müəssisə və qurumların təşkili onun adı ilə bağlıdır. Geniş spektrli fundamental tədqiqat işlərini səmərəli pedaqoji fəaliyyətlə paralel surətdə davam etdirən Yusif Məmmədəliyevin formalaşdırdığı Azərbaycan neft-kimya məktəbi ölkənin hüdudlarından çox-çox uzaqlarda tanınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan elminin inkişafına verdiyi misilsiz töhfələrini nəzərə alaraq, akademik Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə akademik Yusif Məmmədəliyevin 120 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 iyul 2025-ci il*


Əbu-Dabi görüşü: Azərbaycanın sülh diplomatiyasında uğurlu gedişi 3

Sən qaya deyilsən, millətin yaddaşısan, Gəmiqaya! 6-7

Özünəməxsus memarlıq üslubu, qədim məhəllələri və tarixi ruhu ilə müasir Ordubad 8

Qərbi Azərbaycanın qayaüstü təsvirləri 9

Hər sahədə uğur var 10

## Prezident İlham ƏLİYEV:

***“Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur... Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.”***



# 14 iyul 1969-cu il

# Azərbaycanın intibah tarixinin əsasının qoyulduğu gün

*(əvvəli 1-ci səhifədə)*

Dövlətimiz və xalqımız qarşısındakı müstəsna xidmətləri dünyaşöhrətli siyasətçi böyük Heydər Əliyevə əbədi xalq məhəbbəti və dünya azərbaycanlılarının Ümummilli Lideri adını qazandırmışdır. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı və böyük dövlət xadimi kimi ən mühüm missiyanı gerçəkləşdirərək yeni tariximizi yazmışdır. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və şanlı səhifələrindəndir.

Ölkəmizin çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri vardır. Bu mənada, Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünyaşöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb.

1969-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatının gücləndirilməsi Ulu Öndərimizin siyasi xəttinin əsasını təşkil edirdi. Həmin illərdə isə iqtisadi vəziyyət acınacaqlı idi. Belə ki, ötən əsrin 60-cı illərində ölkəmiz iqtisadi vəziyyətinə görə keçmiş SSRİ-də ən geridə qalmış respublikalardan biri idi. Sənaye və kənd təsərrüfatı sahələrinin günün tələblərinə cavab verməməsi əhalinin güzəranının getdikcə pisləşməsi ilə nəticələnmişdi. 1969-cu ildə Sovetlər Birliyində ümumi məhsulun həcmi 1965-ci ilə nisbətən 43 faiz çoxaldığı halda, Azərbaycanda bu artım cəmi 29 faiz olmuşdu. Baxmayaraq ki, ölkəmizin imkanları yetərincə idi, ancaq təbii sərvətlərimiz digər müttəfiq respublikaların inkişafına yönəldilir, Azərbaycan isə məhvə sürüklənirdi. Nəticədə, ötən əsrin 50-ci illərindən sonra SSRİ-də başlanan sənayeləşmə Azərbaycandan yan keçir, ölkədə işsizlərin sayı artır, gənc əhalinin bir qismi iş dalınca ittifaqın müxtəlif şəhərlərinə üz tuturdu.

Ulu Öndər milli şüurun oyanışında, formalaşmasında və möhkəmlənməsində misilsiz xidmətlər göstərmiş, iqtisadi, siyasi, sosial sahədə olduğu kimi, elmin, təhsilin, səhiyyənin, mədəniyyətin də inkişafının strategiya və taktikasını hazırlamış, uğurla həyata keçirilməsinə nail olmuşdur. Ulu Öndər hələ 1960-80-ci illərdə bu möhtəşəm işləri görərkən yaxın gələcəkdə Azərbaycanın müstəqil bir dövlət olacağını düşünürdü və sonralar çıxışlarının birində bu fikrini açıq şəkildə ifadə etmişdi: ***“Bəli, mən bu işləri görərkən həm də gələcək müstəqil Azərbaycan üçün fəaliyyət göstərirdim və gələcək müstəqil Azərbaycan dövlətinin əsaslarını yaradırdım”.*** Əgər 1969-cu il iyulun 14-də millətimizin, xalqımızın taleyi Ulu Öndər Heydər Əliyevə tapşırılmasaydı, okeanlarda üzmək iddiasında olan və bu gün buna nail olan Azərbaycan adlı gəminin sükanı Ona etibar edilməsəydi, indiki inkişafdan danışmaq mümkün olardımı? Təbii ki, yox. Elə ona görə də dünyaca məşhur olan siyasətçilər Heydər Əliyevin hakimiyyətə hər iki gəlişini xalqımızın taleyində bir dönüş mərhələsi kimi səciyyələndirirlər.

Azərbaycan xalqının böyük oğlu 1969-1982-ci illərdə müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət yetirib. Təsadüfi deyil ki, həmin illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli Liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılıb, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılıb. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb.

Ulu Öndərimizin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilib. Bu dövrdə Azərbaycan iqtisadiyyatında keyfiyyət dəyişiklikləri baş verdi. Müəssisələrin yenidən qurulması, yenilərinin açılması, kənd təsərrüfatına dövlət qayğısının artırılması, infrastrukturların yenilənməsi qısa müddət ərzində böyük nailiyyətlərin əldə olunmasına yol açdı. Artıq Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimləri dünya səviyyəsində ölkəmizin milli dəyərlərinin təbliğatçısına çevrilirdilər. Bununla yanaşı, milli düşüncə, təfəkkür gücləndi. Artıq dövlətimizin tarixi tədqiq edilməyə və öyrənilməyə başlandı, ədəbiyyata diqqət ayrıldı, Azərbaycan dilinin inkişafı üçün böyük işlər görüldü. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi hərtərəfli inkişafına zəmin yaratdı.

Naxçıvan Muxtar Respublikası da ötən əsrin 70-ci illərində görülən məqsədyönlü işlər nəticəsində sürətlə inkişaf etməyə başlamışdır. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında Ulu Öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında” 1974-cü il 8 yanvar tarixli Qərarının mühüm rolu olmuşdur. Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə artmışdır.

Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır. Ulu Öndərin o vaxt Naxçıvanın elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına həyat ritmini qoruyub saxlaya bilmişdir.

Ulu Öndərimiz Heydər Əliyevin həmin dövrdə Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqətçəkən ölkə Prezidenti İlham Əliyev demişdir: ***“SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı”.***

1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur. Bir sözlə, 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi müstəqil Azərbaycanın daha da güclənməsinə səbəb olmuşdur. Bu güc Heydər Əliyev ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ölkəmizi daha da inkişaf etdirməyə, dünyada böyük nüfuz qazanmasına imkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir”.***

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan Prezident İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanır. Bütün sahələr üzrə Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan 2020-ci ildə erməni işğalı altında olan torpaqlarımızı 44 gün ərzində azad etdi, ərazi bütövlüyümüz təmin olundu. Ölkə başçısının səsləndirdiyi ***“Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs “Qurani-Kərim”ə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi”*** sözləri həm də Ulu Öndərin ***“Biz o torpaqlara qayıdacağıq!”*** arzusunun reallığa çevrildiyinin təsdiqi idi.

1969-cu ilin 14 iyulu tarixə Azərbaycanın özünə qayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi düşüb. Çünki məhz həmin tarixdən etibarən Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi kimi Azərbaycanı nəinki keçmiş SSRİ-də və dünyada tanıdıb, həm də milli varlığımızı qoruyub saxlayıb. O illərin rəşadəti və şöhrəti XX əsr tariximizə qızıl hərflərlə yazılıb. Buna görə də 14 iyul tarixi xalqımızın qəlbində həm də milliliyin, Azərbaycançılığın, müstəqil və qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün və tarix səhifəsində milli dövlətçiliyimizin əbədi mövcudiyyət günü kimi qəbul edilir.

**Turan MƏMMƏDLİ**



# Əbu-Dabi görüşü: Azərbaycanın sülh diplomatiyasında uğurlu gedişi

Azərbaycan torpaqlarının 30 ilə yaxın işğalı dönəmində olduğu kimi, 44 günlük Vətən müharibəsindən sonra da sülh, barışıq diplomatiyasına sadiqdir və bu yolda zaman-zaman qətiyyətli addım atır, dönməz mövqe ortaya qoyur. Beş ilə yaxın davam edən danışıqlar fonunda regionda cərəyan edən ictimai-siyasi hadisələr belə deməyə əsas verir ki, Prezident İlham Əliyevin irəli sürdüyü sülh gündəliyinə alternativ yoxdur və bundan sonra da olmayacaq. İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında keçirilən görüşü isə bu baxımdan tarixi irəliləyiş, münasibətlərin normallaşması, davamlı sülhün əldə olunması istiqamətində baş tutan danışıqlarda yeni mərhələ adlandırmaq olar.

Əbu-Dabi görüşünü əvvəlki dialoq platformalarından fərqləndirən ən mühüm cəhət, sözsüz ki, bununla danışıqların ikitərəfli formata keçidinin əsasının qoyulmasıdır, başqa sözlə, bu görüşlə tərəflər ilk dəfə əlavə vasitəçi olmadan müəyyən məsələlərə dair fikir mübadiləsi apara biləcəklərini ortaya qoyublar. Bu addımı Azərbaycanın uzun illərdir, apardığı sülh diplomatiyasının əsas meyarlarından biri kimi, uğurlu dönüş nöqtəsi adlandırmaq olar. Yeni yanaşma respublikamızın milli və dövlət maraqlarına tam uyğundur, qarşı tərəfin məsələlərə konstruktiv yanaşmasını üzə çıxarmağa əvvəlkilərdən daha çox yaxındır. Və ən əsası, bütün bunların timsalında Əbu-Dabi görüşü həm də şəxsi maraqları naminə Cənubi Qafqaza əl uzatmağa çalışan xarici qüvvələrə qarşı mühüm siyasi mesaj təsiri bağışlayır – biz kənar müdaxilə olmadan da, özümüz öz problemlərimizi öz aramızda müzakirə edə bilərik mesajını. Azərbaycanın bundan sonra da beynəlxalq hüquq və tarixi ədalət prinsiplərinə əsaslanan mövqeyini davam etdirəcəyini sübut edən yeni format həm də artıq Ermənistan tərəfinin də yavaş-yavaş baş verən oyunların əsl mahiyyətini dərk etməyə başladığını, müxtəlif siyasi dairələrin əlində oyuncaq olmaqdan yaxın gələcəkdə imtina edə biləcəyini göstərir.

Görüşün yekunlarına dair Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatlara əsasən tərəflər iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəliblər. Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin vacib istiqamətləri – sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və inkişafı, sülh müqaviləsinin paraflanması və digər məsələlərlə bağlı çox ciddi və substansiv müzakirələr aparılıb. Bəli, göründüyü kimi, müzakirə predmeti tam aydındır, masaya yatırılan məsələlər həll baxımından zəncirvari xarakter daşıyır, böyük mənada, respublikamızın ortaya qoyduğu mövqe ilə üst-üstə düşür. Cavabı gün kimi aydın olan belə bir sual yaranır: rəsmi Bakı nə istəyirdi bu günə kimi?

Birinci növbədə, sərhədlərin delimitasiya və demarkasiya prosesi sürətləndirilməli, hansı ki Azərbaycan bu istiqamətdə dəfələrlə konkret xəritələr və təkliflərlə çıxış edib. Daha sonra regionda kommunikasiya xətləri açılmalı və iqtisadi inteqrasiya planları, layihələr reallaşdırılmalıdır. İkinci məsələdə də mövqe aydın və dəyişməzdir: Ermənistan imza atdığı 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatda üzərinə götürdüyü öhdəliyi yerinə yetirməli, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın digər ərazisi arasında nəqliyyat bağlantısını təmin etməlidir. Və nəhayət, regional və beynəlxalq iqtisadi əməkdaşlığa əvəzsiz töhfələr verəcək, respublikamızın mühüm təşəbbüsü olan Zəngəzur dəhlizi açılmalıdır. Əslində, Ermənistan tərəfi də dərindən düşünsə, ən optimal yolun məhz bu məsələlərin həllindən ibarət olduğu həqiqətinə varacaq. Əks təqdirdə, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, dalan ölkə kimi yaşamağa və hər gün daha da çox itirməyə davam edəcək.

Ümumilikdə, iyulun 10-da keçirilən və bir neçə saat davam edən Əbu-Dabi görüşü yeni format baxımından Prezident İlham Əliyevin irəli sürdüyü sülh diplomatiyasının növbəti uğurlu addımı kimi tarixə düşdü. Eyni zamanda bu dialoq Ermənistan üçün böyük iqtisadi, siyasi inteqrasiya fürsəti yaratmaq nöqteyi-nəzərindən əlamətdar oldu. Azərbaycan böyük təşəbbüs sayəsində danışıqları növbəti mərhələyə – ikitərəfli formata daşıyaraq üzərinə düşəni layiqincə yerinə yetirməklə topu Ermənistan tərəfinə ötürdü. Və nəhayət, qarşı tərəf oyuncaq olmaqdan imtina edərək əlinə düşən bu fürsəti nəticəyə çevirmək üçün siyasi yetkinlik, diplomatik çeviklik, qətiyyətli mövqe ortaya qoymalı, uzunmüddətli sülh, siyasi, iqtisadi inkişaf, inteqrasiya yoluna addım atmalıdır. Təbii ki, bu yol Azərbaycanla hərtərəfli razılaşmadan, bu yol Zəngəzur dəhlizindən keçir...

**Nail ƏSGƏROV**

## Əbu-Dabi görüşü bir daha təsdiqlədi ki, sülh gündəliyi Azərbaycanın liderliyi ilə irəliləyir

"Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Birləşmiş Ərəb Əmirliklərində keçirilən son görüş regional sabitlik və sülh gündəliyinin irəlilədilməsi baxımından mühüm mərhələ sayıla bilər. Görüşün konstruktiv və qarşılıqlı anlaşma mühitində keçməsi, tərəflərin əsas məsələlər üzrə, o cümlədən sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və sülh müqaviləsinin paraflanması istiqamətində ciddi və substantiv müzakirələr aparması diqqət çəkdi".

Bu sözləri "Şərq qapısı"na açıqlamasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Gülxarə Tarverdiyeva deyib.

Deputat qeyd edib ki, görüşün ən önəmli tərəfi prosesin liderliyini Azərbaycanın öz üzərinə götürməsi olub: "Prezident İlham Əliyevin hərbi, siyasi və diplomatik müstəvidə ardıcıl, prinsipial mövqeyi Azərbaycanın sülh gündəliyində təşəbbüskar tərəf olduğunu bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüşü tarixi edən əsas amil ilk dəfə olaraq tərəflər arasında tam vasitəçisiz, sırf iki dövlətin liderləri və nümayəndə heyətlərinin iştirakı ilə keçməsi oldu. Görüşün məhz Birləşmiş Ərəb Əmirliklərində keçirilməsi təşəbbüsü də Azərbaycan tərəfindən irəli sürülmüşdü. BƏƏ-nin bu məsələdə neytral mövqe tutması, qərəzsiz tərəf kimi çıxış etməsi Azərbaycanın bu ölkəni danışıqlar üçün məkan olaraq seçməsinə əsas verdi. Bu baxımdan Əbu-Dabi görüşü həm də geosiyasi və diplomatik baxımdan əlamətdar hadisə kimi qiymətləndirilə bilər".

Gülxarə Tarverdiyeva vurğulayıb ki, Əbu-Dabi görüşü bir daha təsdiqlədi ki, sülh gündəliyi Azərbaycanın liderliyi ilə irəliləyir. Prezident İlham Əliyevin bu ölkəyə səfərinin başlıca səbəbi Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşün təşkilidir. Bu görüş Azərbaycanın diplomatik çevikliyi, strateji düşüncəsi və liderlik qabiliyyəti fonunda regionda yeni reallıqların formalaşmasında mühüm addım kimi qiymətləndirilə bilər.

*İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüş regionda sülhə doğru atılmış növbəti vacib addımdır.*

# Vasitəçilərsiz görüş qarşılıqlı siyasi iradə və diplomatik jest

Prezident İlham Əliyev Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra qalib ölkənin rəhbəri kimi revanşizmə deyil, məhz sülhə üstünlük verdiyini açıq şəkildə bəyan edib. Ölkəmiz hər zaman beynəlxalq hüquqa, ədalətə və qarşılıqlı hörmətə əsaslanan sülh gündəliyini irəli sürüb. Azərbaycanın təklif etdiyi beş əsas prinsip – qarşılıqlı ərazi bütövlüyünün tanınması, sərhədlərin müəyyənləşdirilməsi, dövlətlərin daxili işlərinə qarışmamaq, kommunikasiyaların açılması və digər fundamental yanaşmalar bu gün bölgədə sabitliyin bərqərar olması üçün möhkəm əsas yaradır.

Azərbaycan həm regionda, həm də beynəlxalq müstəvidə etibarlı və balanslı tərəfdaş kimi qəbul edilir. Azərbaycan nəinki dialoqa açıqdır, hətta bu dialoqun təşəbbüskarına çevrilib. Bu gün beynəlxalq ekspertlər də etiraf edirlər ki, Cənubi Qafqazda sabitliyə aparan yolun xəritəsini məhz Azərbaycan cızır.

Bu gün Azərbaycan öz sözünü deyir, məsuliyyət daşıyır və sabit gələcək naminə real addımlar atır. Əgər bu yol qarşı tərəfdən də anlayışla qarşılanarsa, Cənubi Qafqazda gərginlik və qarşıdurma dövrü başa çatar, əməkdaşlıq və inkişaf mərhələsinə keçid başlaya bilər.

Eyni zamanda Əbu-Dabi görüşü sülh prosesində yeni mərhələnin başlandığını göstərir. Azərbaycan Prezidenti ilə Ermənistan Baş nazirinin Əbu-Dabidə vasitəçilərsiz görüşməsi danışıqlar prosesində yeni mərhələnin başlandığını göstərir. Ermənistan artıq real vəziyyəti və regionda dəyişən güc balansını qəbul edib. Liderlər arasında, təqribən, 5 saat ərzində həm geniş tərkibdə, həm də təkbətək formatda aparılan müzakirələr fundamental mövzuları əhatə edib.

Bu görüş Ermənistan-Azərbaycan münasibətləri tarixində ən vacib diplomatik addımlardan biri kimi yadda qaldı. Bu dəfə görüş heç bir beynəlxalq formatın çətiri altında baş tutmadı. Bu, tamamilə ikitərəfli prosesdir. Təşkil olunan görüş vasitəçisiz danışıqların praktik modelinə çevrildi və bu modelin gələcəkdə bölgədə sülhün əsas platforması olacağı aydındır.

Bütün bu proses Azərbaycanın aydın və prinsipial mövqeyi sayəsində mümkün olub. Bakı israrla bildirir ki, üçüncü tərəflərin iştirakına ehtiyac yoxdur, çünki problem varsa, bu yalnız iki dövlət arasında həll edilməlidir. Vasitəçilərin məqsədi özlərinin varlıqlarını ortaya qoymaq və əldə edilə biləcək razılaşmada öz maraqlarını təmin etmək idi. Təbii ki, bu cür yanaşma Azərbaycanın milli və dövlət maraqlarına uyğun gəlmir. Ona görə də bir neçə ildir ki, Azərbaycan danışıqların vasitəçilərin iştirakı olmadan baş tutması variantını irəli sürürdü.

Ermənistan da artıq bu məntiqli yanaşmanı qəbul etməyə başlayıb və Azərbaycanın sülh konsepsiyasını əsas baza kimi tanıyır. Azərbaycanın diplomatik üstünlüyü də ondadır ki, nəinki döyüş meydanında həm də diplomatik masada oyunun qaydalarını özü müəyyənləşdirir və bu qaydalar region üçün real və əhəmiyyətli gələcək vizyonu təklif edir. Bu da göstərir ki, ikitərəfli və vasitəçisiz dialoq formatı özünü doğruldur və işlək mexanizmə çevrilir. Əbu-Dabi görüşü bütün hallarda uğurlu bir hadisədir.

Bu görüş Cənubi Qafqazda Azərbaycanın siyasi iradəsinin və mövqeyinin həlledici olduğunu göstərir. Açıq etiraf olunmasa da, hər kəsə bəllidir ki, bu prosesləri idarə edən rəsmi Bakıdır. Nəticə isə göz önündədir... Bu da cənab Prezidentin siyasi iradəsinin, diplomatik yanaşmasının, beynəlxalq müstəvidəki nüfuzunun qələbəsi olmaqla nəhəng diplomatik uğurdur.

Digər bir uğursa, görüşdə Azərbaycanın diktə edən tərəf olmasıdır. Hətta Prezident İlham Əliyevin görüşə gələn Ermənistanın nümayəndə heyətinə etdiyi diplomatik jest medianın gözündən qaçmadı. Manşetləri bəzəməklə bizim hər birimizə qürurlu anlar yaşatdı. Bu faktın özü də onu göstərir ki, Azərbaycan ikitərəfli danışıqlarda aparıcı tərəfdir.

İstənilən halda bu görüş uğurdur. Çünki ən pis sülh danışığı müharibədən daha yaxşıdır. Detallar açıqlanmasa da, müşahidələr göstərir ki, Ermənistan tərəfi Azərbaycanın tələbləri qarşısında geri çəkilib. İrəvanın mövqeyindəki yumşalma ölkəmizin hərbi, iqtisadi və diplomatik gücünün sayəsində mümkün olub. Qarşılıqlı olaraq açıq qalan sualların və bir çox məsələlərin iki ölkə arasında birbaşa həlli hər iki tərəf üçün məqsədəuyğundur.

Sadalanan məqamlara nəzər salaraq deyə bilərik ki, Əbu-Dabi görüşü məntiqin, siyasi iradənin və gələcəyə baxışın addımlarıdır.

**Məmməd BABAYEV**

## Səlahiyyətli nümayəndə Kəngərli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb



İyulun 11-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Kəngərli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Səlahiyyətli nümayəndəliyin fəaliyyətə başlamasından sonra muxtar respublikanın bütün bölgələrində, o cümlədən Kəngərli rayonunda sakinlərlə keçirilən mütəmadi görüşləri xatırladan Fuad Nəcəfli qeyd edib ki, sakinlərin problem və təklifləri kateqoriyalaşdırılaraq bu əsasda Dövlət Proqramı hazırlanıb. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə əhəmiyyətinə və mahiyyətinə görə ən vacib dövlət sənədlərindən biridir. Dövlət Proqramında muxtar respublikanın bütün sahələrini əhatə edən prioritet istiqamətlər müəyyənləşdirilib və onların hər biri üzrə işlər davam etdirilir. Hazırda su və kənd təsərrüfatı, enerji təhlükəsizliyi, turizm, infrastruktur quruculuğu, təhsil, səhiyyə və digər sahələrdə mühüm layihələr icra edilir.

Dövlət Proqramının hazırlanmasında və icrasında yaxından iştirakına görə Kəngərli rayonunun ziyalılarına təşəkkür edən səlahiyyətli nümayəndə ictimaiyyətlə aktiv işin təşkilini vacib hesab edib, bundan sonra da mütəmadi görüşlərin keçirilməsi barədə müvafiq tapşırıqlar verib.

Görüşdə iştirak edən sakinlərin problem və təklifləri dinlənilib, rayonun davamlı inkişafı və gələcək perspektivlər barədə fikir mübadiləsi aparılıb.

## Kəngərli Rayon İcra Hakimiyyətinin başçısına yeni müavin təyin edilib

Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərovun 2025-ci il 10 iyul tarixdə imzaladığı Sərəncama əsasən Rüstəmov Cəlil Abbas oğlu Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini – ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Cəlil Rüstəmovu Kəngərli Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivinə təqdim edib.

Samir Seyidəhmədli yeni təyinatın rayon İcra Hakimiyyətinin fəaliyyətinə müsbət töhfə verəcəyini bildirib, hazırkı mərhələdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində qarşıda duran vəzifələrə diqqət çəkib, müəyyən olunmuş hədəflərə çatmaq üçün görüləcək işlərdə kollektivə uğurlar arzulayıb.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov isə qeyd edib ki, qarşıya qoyulan vəzifələrin bundan sonra da ardıcıl və səmərəli şəkildə yerinə yetirilməsi təmin olunacaq.

Cəlil Rüstəmov ona göstərilən etimada görə minnətdarlığını bildirib, üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirəcəyini diqqətə çatdırıb.

Qeyd edək ki, Cəlil Rüstəmov yeni vəzifəyə təyin olunmazdan öncə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri vəzifəsində çalışıb.

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər barədə qanun layihəsi təsdiqlənib



Azərbaycan Respublikası Milli Məclisinin iyulun 8-də keçirilən iclasında "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanununun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Qəbul edilmiş dəyişikliklər Naxçıvan Muxtar Respublikasının idarəetmə strukturunun mərkəzləşdirilməsi, səlahiyyət bölgüsünün dəqiqləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin rolu ilə bağlı əhəmiyyətli yeniliklər ehtiva edir. Belə ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis olunur. Bu qurum Prezidentə birbaşa tabe olacaq və onun müəyyənləşdirdiyi vəzifələri icra edəcək. Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının dövlət rəmzləri ilə eyniləşdirilir. Konstitusiyanın preambulasında Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olması vurğulanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər Prezidentin qərarı ilə, Ali Məclis sədrinin təklifi əsasında keçiriləcək. Müharibə şəraitində seçkilərin keçirilməsinin mümkünsüzlüyü halında səlahiyyət müddəti uzadılacaq. Məclisin fəaliyyət göstərməməsi və ya 31 deputatın tələbi əsasında Prezident tərəfindən buraxılması imkanı yaradılıb. Nazirlər Kabineti və digər icra strukturlarının fəaliyyəti Prezidentin razılığı ilə tənzimlənəcək. Mərkəzi icra orqanlarının yaradılması və ləğvi Prezidentin razılığı ilə mümkün olacaq. "Qərar" anlayışı "sərəncam" anlayışı ilə əvəz edilib, normativ-hüquqi aktların qəbul qaydalarında dəqiqləşmələr aparılıb. Qanunların qəbul qaydası yenidən müəyyən edilib, bəzi səlahiyyətlər ləğv olunub və ya Azərbaycan Respublikası Prezidentinə verilib. Bu dəyişikliklər Naxçıvan Muxtar Respublikasının hüquqi və inzibati sisteminin Azərbaycan Respublikası Konstitusiyası ilə daha sıx inteqrasiyasını təmin etməyi hədəfləyir.

Qeyd edək ki, Milli Məclisin iclasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli və Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov da iştirak ediblər.

## Heydər Əliyev Mərkəzində "Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilib



İyulun 8-də Heydər Əliyev Mərkəzində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans təşkil edilib.

İştirakçılar əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin jurnalistlərlə görüşlərini, Azərbaycan mətbuat tarixində mühüm



rol oynamış nəşrləri əks etdirən "Azərbaycan mətbuatının 150 ili: tarixdən günümüzə" adlı sərgiyə baxış keçiriblər.

Konfransda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin Azərbaycan mətbuatının tarixi, inkişaf yolu, perspektivləri, eyni zamanda medianın cəmiyyətdə maarifləndirmə funksiyası və milli dəyərlərin təbliğindəki rolu barədə səsləndirdiyi fikirləri əks etdirən videoçarx nümayiş olunub.

Konfransın açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan media prinsiplərinin bu gün də dövlətin informasiya siyasətində və medianın fəaliyyətində öz əksini tapdığını və aktuallığını qoruyub saxladığını diqqətə çatdırıb. O, Azərbaycanda müstəqil mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsində, bu sahəni tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmasında Ulu Öndərin əvəzsiz rolu barədə danışıb.

O bildirib ki, Prezidentin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamında göstərildiyi kimi, Vətən müharibəsində Qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləyib.

Konfrans çərçivəsində "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rafiq Həşimovun moderatorluğu ilə "Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan media prinsipləri" mövzusunda panel sessiya təşkil edilib.

Sessiyada çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, demokratik dünyanın və demokratik düşüncəyə sahib insanların kəşf etdikləri, arxasında dayandıqları və inkişafına töhfə verdikləri ən vacib sahələrdən biri də mətbuatdır. Bu sahədə əldə olunan nailiyyətlər xüsusi əhəmiyyət kəsb edir.

Komitə sədri qeyd edib ki, cəmiyyət inkişaf etdikcə bu tərəqqi mətbuat sahəsində də özünü göstərir. Mətbuatın yaranması, keçdiyi yol və əldə etdiyi uğurlar barədə danışarkən nəzərə almaq lazımdır ki, əgər müstəqilliyimizin tarixi 100 ildən bir qədər artıqdırsa, mətbuatımızın yaranma tarixi onu da qabaqlayır. Bu baxımdan, müstəqil dövlətlərin qurulması, inkişaf etməsi həm də elə mətbuatın əldə etdiyi nailiyyətdir.

Noyabr ayında çox vacib bir tarixin – böyük Qələbənin beş illiyinin qeyd olunacağını diqqətə çatdıran Azərbaycan Yazıçılar Birliyinin üzvü, TASS Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Medianın İnkişafı Agentliyinin rəhbərliyinə müraciət edərək həmin ərəfədə Prezident İlham Əliyevin Azərbaycan mediasının inkişafındakı rolu ilə bağlı konfransın keçirilməsi təklifini irəli sürərək deyib: "Düşünürəm ki, bu, çox vacib konfrans olacaq. Üstəlik, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi zamanı verdiyi 26 müsahibə peşəkar jurnalist diplomatiyasının ən böyük fantastik nümunəsidir. Bilirəm ki, bu müsahibələrlə bağlı bir kitab nəşr edildi. Lakin mənə elə gəlir ki, Ali Baş Komandanın informasiya sahəsindəki şücaəti ayrıca müzakirə və təhlil olunmalıdır. Belə bir konfrans keçirilsə, xoşbəxt olaram".

Panel sessiyada çıxış edən YAP İdarə Heyətinin üzvü və Veteranlar Şurasının sədri Arif Rəhimzadə Ulu Öndər Heydər Əliyevin dövlətçilik tariximizdəki əvəzsiz rolundan danışıb.

Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Anar İsgəndərov bu gün ölkəmizdə, sözün əsl mənasında, güclü və nüfuzlu mətbuatın mövcud olduğunu vurğulayıb.

Milli Məclisin deputatı, Əməkdar jurnalist Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev təkcə jurnalistikaya deyil, ümumiyyətlə, bütün sahələrdə görülən işlərə xüsusi önəm verirdi.

Tədbirin sonunda "Heydər Əliyevin təhsil siyasəti: jurnalist peşəkarlığının artırılmasında təhsilin rolu" mövzusunda dəyirmi masa keçirilib.

Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərovanın moderatorluğu ilə təşkil olunan müzakirədə jurnalistika və kommunikasiya sahəsində çalışan akademik nümayəndələr iştirak ediblər.

# Enactus komandası "Şərq qapısı"nda – media əməkdaşlığı müzakirə olundu



Naxçıvan Dövlət Universitetinin Enactus komandasının üzvləri "Şərq qapısı" qəzetində olublar. Gənclərlə keçirilən görüşdə əsas müzakirə mövzusu həyata keçirilən sosial və innovativ layihələrə media dəstəyinin göstərilməsi, bu sahədə qarşılıqlı əməkdaşlıq imkanları olub.

Redaksiya əməkdaşları ilə səmimi və işgüzar ab-havada keçən görüş zamanı Enactus komandasının nümayəndələri fəaliyyətləri, uğurları və qarşıya qoyduqları məqsədlərlə bağlı təqdimatla çıxış ediblər. Onlar bildiriblər ki, bu cür görüşlər və media ilə əlaqələrin gücləndirilməsi layihələrinin təsir dairəsini artırmaq baxımından olduqca vacibdir.

"Bugünkü qonaqlarımız ideyaları ilə seçilən, təşəbbüsləri ilə gələcəyə töhfə verən gənclər oldu. Onların cəmiyyətə fayda vermək əzmi və enerjisi gələcəyə olan inamımızı daha da artırır. Biz, "Şərq qapısı" olaraq belə təşəbbüslərə dəstək göstərməyi özümüzə borc bilirik", – deyə görüş zamanı vurğulanıb.





Komanda üzvləri də redaksiya kollektivinə göstərilən diqqətə görə minnətdarlıq bildirərək bu görüşün onlarda ruh yüksəkliyi yaratdığını və gələcək əməkdaşlıq üçün motivasiya verdiyini qeyd ediblər.

# Sərşəhər məscidinin bərpası ilə bağlı layihələndirmə işləri aparılıb



Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini icra edən Həsən Seyidov nazirlik tərəfindən "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu ilə bağlı görülmüş işlər, qarşıda duran məsələlər barədə ətraflı məlumat verib, media nümayəndələrinin suallarını cavablandırıb.

Nazir müavini qeyd edib ki, ölkə Prezidenti cənab İlham Əliyev 2024-cü il 21 fevral tarixdə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Sərəncam imzalayıb. Həmin Sərəncamın icrası üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli Qərarı ilə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonası" və "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisinin xüsusi rejimi" təsdiq edilib. Qoruğun ərazisi 240,06 hektar, mühafizə zonası 11,81 hektar olmaqla, ümumilikdə, 251,87 hektar ərazini əhatə edir. Qoruq ərazisində 1-i dünya, 1-i ölkə, 218-i yerli əhəmiyyətli olmaqla, ümumilikdə, 220 daşınmaz tarix və memarlıq abidəsi mövcuddur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 mart tarixli Qərarı ilə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi təsdiq edilib.

Nazir müavini vurğulayıb ki, qoruğun ərazisində tarix-mədəniyyət abidələrinin bərpa-konservasiyası istiqamətində işlər aparılır. Qoruğun inzibati binası üçün nəzərdə tutulan "Ərbabın iş yeri" tarixi binanın və Sərşəhər meydanında yerləşən Sərşəhər məscidinin bərpası ilə bağlı layihələndirmə işləri aparılıb, hazırda mədrəsə binasının bərpası ilə bağlı layihələndirmə işləri və "Ərbabın iş yeri" tarixi binanın bərpası istiqamətində satınalmalar keçirilir.

# Heydər Əliyev jurnalistlərin ən yaxın dostu idi




"Bu konfransda "Əkinçi" ilə başlanan "Ziya", "Ziyayi-Qafqaziyyə" ilə davam edən, ən sonda "Azərbaycan"ı yaradan, bu gün isə çoxsaylı mətbuat orqanına sahib olan ölkə jurnalistikasını, bütövlükdə, media mühitini incələdik. Təbii ki, bu 150 illik mətbuat tarixi dönəminin müəyyən zaman kəsiyində Ümummilli Lider Heydər Əliyevin mətbuatın inkişafında rolu böyükdür. Çünki Heydər Əliyev hələ birinci dəfə hakimiyyətə gəldiyi 1969-cu ildən sonra Azərbaycanda yerli mətbuat orqanlarının yaradılmasında çox böyük təşəbbüslər göstərib".

Bu sözləri Heydər Əliyev Mərkəzində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda keçirilən konfransdan sonra "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı deyib. O bildirib ki, keçirilən konfransda Azərbaycan milli mətbuatının 150 illik tarixi, bu şərəfli tarixdə Ümummilli Lider Heydər Əliyevin rolu və Azərbaycan mətbuatının inkişafında göstərdiyi mühüm xidmətlər barəsində danışılıb və ümumiyyətlə, Azərbaycan milli mətbuatının 150 illiyinə bütövlükdə diqqət yönəldilib: "Azərbaycanda mətbəələrin yaradılmasında Heydər Əliyevin çox müstəsna xidməti var. Baxmayaraq ki, bir partiyalı dönəmdə fəaliyyət göstərən Azərbaycan jurnalistləri sovetlər dönəmində idilər, onda da Azərbaycan mətbuatının formalaşması, dilimizin təmizliyi və milli-mənəvi dəyərlərimizin saxlanılması ön planda idi. Sonrakı dönəmdə, yəni 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra isə mətbuatın inkişafının yeni bir mərhələsi artıq mövcud idi. Demokratik, azad milli mətbuatın artıq bünövrələri qoyulmuşdu. Bu bünövrələrin əsasında Ümummilli Lider Heydər Əliyev çoxsaylı bir fəaliyyət planı seçdi. Jurnalistlərin ən yaxın dostu idi, jurnalistlərlə daim təmasda olurdu və Azərbaycan çap mətbuatının inkişafında xüsusi xidmətləri var idi. Onun hakimiyyəti dönəmində yüzlərlə qəzet nəşr olunub. İstər partiyaya bağlı, istər müstəqil, istərsə də heç bir siyasi partiyaya xidmət etməyən müxtəlif sahəyönümlü qəzetlər həmin dövrdə fəaliyyət göstərib və məhz o zaman mətbuata dövlət qayğısının əsası qoyulub. Bu gün də bu proseslər artıq davam edir və Ümummilli Lider Heydər Əliyevin qoyduğu önəmli yol İlham Əliyev tərəfindən davam etdirilir. Ona görə də məhz hesab edirəm ki, keçirilən tədbirin əsas mahiyyəti və məğzi də bundan ibarət idi".

# Üç yeni informasiya sisteminin təqdimatı keçirilib

İyulun 7-də Naxçıvan Dövlət Universitetində Tələbə Məlumat İnformasiya Sistemi (TMİS), İnventar Məlumat Sistemi (İMS) və Elmi Əsərlər Jurnalı platformasının təqdimatı olub.

Rektor Elbrus İsayev çıxış edərək təqdimatı keçirilən bu proqramların ali təhsil ocağında təhsilin idarə olunmasında, elmi fəaliyyətin təşkili və nəşrində, eləcə də maddi-texniki bazanın idarəsində şəffaflıq, sürət və avtomatlaşdırma istiqamətində uğurlu nəticələrin əldə olunmasına hədəfləndiyini ifadə edib.

İnformasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli Tələbə Məlumat İnformasiya Sistemi (TMİS) barədə məlumat verib. O qeyd edib ki, bu sistem rəqəmsal transformasiyanın önəmli mərhələlərindən biri olub, tələbə məlumatlarının mərkəzləşdirilmiş şəkildə idarə edilməsini təmin edən müasir və çoxfunksiyalı platformadır.



Texnoloji baxımdan TMİS müasir proqramlaşdırma texnologiyaları (PHP, Laravel, MySQL) ilə hazırlanıb, mobil versiyaya uyğun dizayn, SSL təhlükəsizlik sertifikatları və istifadəçi rollarına əsaslanan idarəetmə ilə gücləndirilib. Sistem LMS, "WhatsApp" dəstəyi, e-poçt bildirişləri və digər universitet sistemləri ilə inteqrasiya edilərək bir-biri ilə əlaqəli işləyən tam ekosistem yaradıb. Nəticədə, TMİS tələbə məlumatlarının mərkəzləşdirilməsi, dərs və imtahan cədvəllərinin paylaşılması, elektron imtahan, LMS inteqrasiyası, yataqxana və ödəniş modulları, habelə statistik hesabatların yaradılması kimi imkanları ilə tədris prosesinin effektivliyini artırır.




İnformasiya texnologiyaları şöbəsinin Verilənlər bazasının administratoru Püstə Zeynalova Elmi Əsərlər jurnalı platformasının mahiyyəti, həmin şöbənin sistem inzibatçısı Rəşad Abbasov İnventar Məlumat Sistemi haqqında məlumatları tədbir iştirakçıları ilə bölüşüblər.

# "Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)" informasiya sisteminin tətbiqi ilə bağlı təlim

İyulun 8-də Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində "Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)" informasiya sisteminin tətbiqi ilə bağlı ikigünlük təlimə start verilib. Təlim Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq sistem üzrə təlim-tətbiq komandasının iştirakı ilə təşkil olunub.



İki gün davam edən təlimdə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin və tabe qurumlarının əməkdaşları, həmçinin muxtar respublikada dövlət rüsumlarının tutulmasını həyata keçirən aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Təlim başlamazdan əvvəl maliyyə nazirinin müavini Elvin Əlimərdanov çıxış edərək bildirib ki, təlimin əsas məqsədi "Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)" informasiya sisteminin yaradılma zərurətinin və onun qanunvericilik əsaslarının iştirakçılara izah olunması, sistemin funksional imkanları barədə ətraflı məlumatın təqdim edilməsi, eyni zamanda aidiyyəti qurumlarda praktiki tətbiqi üçün zəruri bilik və bacarıqların formalaşdırılmasıdır.

İlk mərhələdə təlim iştirakçılarına sistemin hüquqi bazası, normativ aktlarla tənzimlənməsi və elektron sistemə keçidin üstünlükləri barədə məlumat verilib, sistemin texniki imkanları, istifadə qaydaları və tətbiq mexanizmləri izah edilib.

Daha sonra təlim iştirakçılarla qarşılıqlı müzakirə şəraitində davam etdirilib. Sistemin tətbiqi ilə bağlı suallar cavablandırılıb və fikir mübadiləsi aparılıb.

Təlimin sonunda iştirakçıların rəyləri və təklifləri dinlənilib, sistemin tətbiqində qarşıya çıxa biləcək çətinliklər və onların həll yolları birgə müzakirə olunub.

# Rəhbərlər üçün İnkişaf Proqramı başa çatıb



Naxçıvan Təlim Mərkəzinin məlumatına görə, Rəhbərlər üçün İnkişaf Proqramı çərçivəsində sonuncu təlim sessiyası və test əsaslı qiymətləndirmə mərhələsi baş tutub.

Proqram boyunca iştirakçılar müasir idarəetmə üsulları, liderlik bacarıqları, strateji planlaşdırma və effektiv kommunikasiya kimi mövzularda bilik və bacarıqlarını artırıblar. Təlimin keçirilməsində məqsəd rəhbər heyətin idarəetmə qabiliyyətini təkmilləşdirmək, onların peşəkar inkişafına dəstək göstərmək olub.

İyulun 7-də keçirilən test əsaslı qiymətləndirmə ilə proqramın son mərhələsi tamamlanıb. Bu mərhələ iştirakçıların əldə etdikləri biliklərin qiymətləndirilməsi və ümumi nəticələrin müəyyən olunması baxımından əhəmiyyət kəsb edir.

Daha sonra keçiriləcək sertifikasiya imtahanından sonra proqramı uğurla başa vuran iştirakçılara rəsmi sertifikatlar təqdim olunacaq.

Naxçıvan Təlim Mərkəzi bundan sonra da rəhbər kadrların inkişafına yönəlmiş proqramların təşkili istiqamətində fəaliyyətini davam etdirəcək.

# Gəmiqaya və Göygöl UNESCO Siyahısında

## Ordubaddan dünyaya açılan mədəni irs

### “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi” UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilib




2025-ci il 6-16 iyul tarixlərdə Fransanın paytaxtı Paris şəhərində UNESCO-nun Baş Qərargahında Dünya İrsi Komitəsinin 47-ci sessiyası keçirilir. Sessiyanın gündəliyinə uyğun olaraq 11 iyul tarixdə Dünya İrsinin İlkin Siyahısına təqdim olunan nominasiya fayllarının müzakirəsi aparılıb.

Azərbaycan tərəfindən təqdim olunmuş “Qədim Qəbələ şəhəri” və “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi” UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilib.

Qeyd edək ki, Ordubad rayonu ərazisində, Zəngəzur silsiləsinin suayırıcı hissəsində, 3725 metr yüksəklikdə yerləşən Gəmiqaya, Azərbaycan mədəniyyətinin ən qədim nümunələrindən biridir. Bu ərazi Tunc dövrünün müxtəlif mərhələlərinə, Dəmir dövrünə və orta əsrlərə aid zəngin qayaüstü təsvirlərlə diqqət çəkir.



*Sən qaya deyilsən, millətin yaddaşısan, Gəmiqaya!*

11 iyul 2025-ci il. Paris. UNESCO-nun Baş Qərargahında keçirilən 47-ci sessiyada Azərbaycanın təqdim etdiyi iki nadir mədəni-tarixi irs nümunəsi – “Qədim Qəbələ şəhəri” və “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi” Dünya İrsinin İlkin Siyahısına daxil edilməsini böyük sevinc hissi ilə qarşıladıq. Bu Azərbaycanın mədəni uğurudur. Həm də tariximizin və yaddaşımızın dünya səviyyəsində qəbul olunması deməkdir. Bu xəbərin ən qürurverici tərəfi isə ondan ibarətdir ki, siyahıya düşən irs nümunələrindən biri olan Gəmiqaya məhz Ordubad rayonunun ərazisində, Zəngəzur silsiləsinin suayırıcı hissəsində, 3725 metr yüksəklikdə yerləşən müqəddəs bir dağdır.

*Qayalarda danışan tarix*

Gəmiqaya qədim insanların daşlara həkk etdiyi düşüncə, inanc və həyat fəlsəfəsidir. Tunc dövrünün müxtəlif mərhələlərinə, Dəmir dövrünə və orta əsrlərə aid olan bu qayaüstü təsvirlər – ov səhnələri, insan fiqurları, heyvan obrazları, rəmzi işarələr, sadəcə, bir xalqın yox, bütün bəşəriyyətin qədim düşüncə xəzinəsidir. Gəmiqaya bu gün Azərbaycan mədəniyyətinin ilkin ocaqlarından biri kimi dünya miqyasında tanınır. Bu əraziyə səyahət edən hər bir insan orada təkcə qədim sənətin deyil, həm də zamanın səsinə qulaq asır. Daşlara həkk olunan hər simvol bir niyyətdir, bir duadır, bir hekayədir. Gəmiqaya tarixi bir salnamə kimi minillikləri susaraq, ancaq dərin mənalarla danışaraq ötürür.

*UNESCO tərəfindən tanınmaq*

Qeyd edək ki, Gəmiqayanın UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına düşməsi həmin ərazinin elmi tədqiqatlara daha geniş açılması, dünya turizm xəritəsinə salınması, bəşəri irsə töhfə kimi dəyərləndirilməsinə böyük imkan yaradacaqdır.

Gəmiqayanın bu siyahıya daxil edilməsi Azərbaycanın qədim sivilizasiya məkanı kimi tanınmasına bir daha sübut oldu. Bu uğur, sadəcə, mədəni irsimiz üçün deyil, həm də ölkəmizin beynəlxalq nüfuzu üçün mühüm əhəmiyyət daşıyır.

*Yüksəklikdə olan dəyər*

Bu gün biz 3725 metrlik yüksəklikdə yerləşən bir mədəniyyət abidəsini təkcə coğrafi deyil, mənəvi yüksəklikdə də görürük. Gəmiqaya artıq, sadəcə, Azərbaycanın deyil, bütün dünyanın tanıdığı və qoruduğu dəyərlər sırasındadır. Sevinirik və qürurluyuq: daşlarda qalmış bir xalqın ruhu duyulur, sözü eşidilir. Millətimin yaddaşı Gəmiqaya, uğurun mübarək olsun!

**Əhməd ƏHMƏDOV**



**Vüqar RƏHİMZADƏ**
**Milli Məclisin deputatı**

“Azərbaycan mədəni irsi növbəti dəfə dünya miqyasında layiqincə tanınıb. 11 iyul 2025-ci il tarixdə UNESCO-nun Parisdə keçirilən 47-ci sessiyasında ölkəmiz tərəfindən təqdim olunan “Qədim Qəbələ şəhəri” və “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi” Dünya İrsinin İlkin Siyahısına daxil edilib. Bu uğur bütün xalqımız üçün, xüsusilə də ordubadlılar üçün böyük sevinc və qürur doğurur. Ordubad rayonunun ərazisində, Zəngəzur silsiləsinin suayırıcı hissəsində, 3725 metr yüksəklikdə yerləşən Gəmiqaya Azərbaycan mədəniyyətinin ən qədim nümunələrindən biridir. Minilliklər öncədən bu günə qədər qorunub saxlanılan qayaüstü təsvirlər – həyat, təbiət, insan və inancla bağlı izlər, sadəcə, sənət nümunələri deyil, həm də milli yaddaşımızın daşıyıcılarıdır. Bu qayaüstü rəsmlər bizim kimliyimiz, mənəvi dəyərlərimiz, qədim dünyagörüşümüz haqqında zəngin məlumat verir.

Bu ərazinin UNESCO kimi nüfuzlu beynəlxalq təşkilat tərəfindən qorunmağa layiq hesab edilməsi, regionun təkcə təbii gözəlliyi ilə deyil, həm də tarixi, arxeoloji və mədəni dəyəri ilə tanınması deməkdir. Gəmiqaya təkcə Ordubadın deyil, bütün Azərbaycanın qədimliyini və bəşəriyyətə bəxş etdiyi dəyərləri təcəssüm etdirən canlı irs nümunəsidir.

Bundan sonrakı mərhələdə Gəmiqayanın UNESCO-nun Dünya İrsinin Əsas Siyahısına daxil edilməsi üçün elmi tədqiqatlar, beynəlxalq əməkdaşlıqlar və mədəni irsin qorunmasına dair zəruri tədbirlər davam etdiriləcək.

Azərbaycanın mədəni irsinin beynəlxalq səviyyədə tanıdılmasına da xidmət edən bu mühüm hadisə münasibətilə Ordubad sakinlərini, bütün muxtar respublika ictimaiyyətini və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm. Bu uğur bizim keçmişimizə verilən dəyər, gələcək nəsillərə ötürəcəyimiz bir mirasdır”.



# Özünəməxsus memarlıq üslubu, qədim məhəllələri və tarixi ruhu ilə müasir

# Ordubad



## Ordubadda "15 dəqiqəlik şəhər" konsepsiyası tətbiq ediləcək

Ordubadın yenilənən Baş planının əsas istiqamətlərindən biri də infrastrukturun müasirləşdirilməsidir. Bu çərçivədə yolların genişləndirilməsi, yeni ictimai nəqliyyat xətlərinin yaradılması və piyada əlçatanlığının artırılması xüsusi yer tutur. Layihədə "15 dəqiqəlik şəhər" konsepsiyasının tətbiqi nəzərdə tutulur. Bu yanaşmaya əsasən şəhər sakinləri yaşadıqları ərazidən uzaqlaşmadan – maksimum 15 dəqiqəlik məsafədə alış-veriş, səhiyyə, təhsil, istirahət və digər əsas xidmətlərdən istifadə edə biləcəklər.





Layihəni icra edən İsveçrənin "SA Partners" şirkətinin nümayəndəsi Angela Wiest bu barədə bir sıra vacib məqamlara toxunub. Onun sözlərinə görə, planlamada əsas məqsədlərdən biri şəhərdə hərtərəfli əlçatanlığın təmin olunmasıdır:

"Ən önəmli faktorlardan biri odur ki, insanlar yaşadıqları yerdə piyada istədikləri xidmətlərə çata bilsinlər. Məhəllələrə, müxtəlif ərazilərə rahatlıqla, həmçinin velosipedlə hərəkət etmək mümkün olacaq. Layihədə yavaş hərəkət zolaqları (slow traffic lanes) da nəzərdə tutulur. Yeni ictimai nəqliyyat xətləri yaradılaraq həm şəhər daxilində, həm də dəmir yolu stansiyasına sərnişin axını təmin olunacaq. Bütün sistem bir-biri ilə əlaqəli şəkildə qurulacaq ki, insanlar yalnız avtomobildən istifadə etməyə məcbur qalmasınlar".

Hazırlanan plan Ordubadda həm dayanıqlı şəhərsalmanın təmin olunmasına, həm də ekoloji baxımdan daha sağlam mühitin formalaşmasına töhfə verəcək.

## Ordubadda "ağıllı kənd" təsərrüfatı modeli tətbiq ediləcək

Ordubadın yenilənən Baş planı çərçivəsində kənd təsərrüfatında innovativ yanaşmaların tətbiqi, eləcə də təhsil və səhiyyə infrastrukturunun genişləndirilməsi əsas hədəflərdəndir. Layihənin hazırlanması prosesinə yerli əhali, mütəxəssislər və sahə üzrə ekspertlər də cəlb olunub. Müxtəlif mərhələlərdə onların fikirləri nəzərə alınaraq planlara inteqrasiya olunur.

Layihəni həyata keçirən İsveçrənin "SA Partners" şirkətinin nümayəndəsi Angela Wiest bu barədə ətraflı məlumat verib. O bildirib:

"Ordubadda yeni iş yerlərinin yaradılmasına yönəlik tədbirlər görüləcək. Burada yaşamaq və işləmək istəyənlər üçün uyğun infrastruktur təmin ediləcək. Hədəfimiz yalnız şəhəri dəyişmək deyil, mövcud iqtisadi strukturlara yeni nəfəs verməkdir. Məsələn, kənd təsərrüfatı sahəsində "smart", yəni ağıllı texnologiyalara əsaslanan model tətbiq olunacaq. Bu həm məhsuldarlığı artıracaq, həm də yeni filial və müəssisələrin yaranmasına şərait yaradacaq".

Angela Wiest təhsil sahəsində də inkişafın nəzərdə tutulduğunu, yeni məktəblərin tikintisi və səhiyyə infrastrukturunun genişləndirilməsi istiqamətində addımların atılacağını bildirib:

"Bu yeniliklər xüsusilə gənclərin Ordubadda qalmasına, burada yaşayıb yaratmasına stimul verəcək. Məqsəd Ordubadın simasını dəyişmək deyil, onu daha da gücləndirib gələcəyə daşımaqdır".

Hazırda Baş plan üzrə əsas mərhələlər tamamlanmaq üzrədir. Şəhərdə nəzərdə tutulan dəyişikliklər tədricən həyata keçiriləcək və sakinlər bu inkişafı mərhələli şəkildə hiss edəcəklər.

## Ordubadda "mini-parklar" salınacaq – "yaşıl şəhər" konsepsiyası tətbiq olunur

Ordubadın yenilənən Baş planında ətraf mühitin qorunması və davamlı inkişaf əsas prioritetlərdəndir. Bu çərçivədə mövcud yaşıl ərazilərin qorunması, yeni ağacların əkilməsi və təbii resurslardan ağıllı istifadə vacib hədəflər kimi müəyyən edilib. Ənənəvi həyat tərzinin ayrılmaz hissəsi olan kəhrizlər də qorunacaq və şəhərin ümumi həyatında öz funksional rolunu davam etdirəcək. Bu qədim su şəbəkələri həm mədəni irs, həm də müasir dövrdə praktik əhəmiyyət daşıyan elementlər kimi qiymətləndirilir.



Layihəni icra edən İsveçrənin "SA Partners" şirkətinin nümayəndəsi Angela Wiest layihə ilə bağlı bir sıra vacib məqamlara toxunub. O bildirib:

"Sizə bir nümunə göstərim – "communal pocket" parks, yəni cəmiyyətin istifadəsinə açıq olan kiçik yaşıl sahələr. Bunlar "mini-parklar" kimi şəhərin müxtəlif nöqtələrində yaradılacaq. İnsanlar burada görüşə, söhbət edə, vaxt keçirə və uşaqlar oyun oynaya biləcəklər. Bu parklarda geniş ağacəkmə işləri aparılacaq, kölgəli sahələr yaradılacaq. Eyni zamanda digər yaşayış məntəqələrində də ağac əkilməsi və kölgəlik sahələrin artırılması nəzərdə tutulur".



Layihənin əsas məqsədlərindən biri şəhərin "yaşanılabilirliyini" – yəni yaşam şəraitini yüksəltməkdir. İnsanların yaşadıqları məkandan və şəhər mühitindən məmnun qalması üçün bütün detallar düşünülüb. Bu yanaşma Ordubadın həm ekoloji, həm də sosial baxımdan daha sağlam və cəlbedici bir şəhərə çevrilməsinə xidmət edəcək.



## Ordubadda yeni yaşayış məntəqələri və müasir mənzillərin tikintisi nəzərdə tutulur

Ordubad, Şahbuz, Culfa və Babək şəhərlərinin Baş planları beynəlxalq təcrübəyə əsaslanaraq yenilənir. Bu istiqamətdə işləri İsveçrənin "SA Partners" şirkəti həyata keçirəcək. Məqsəd şəhərlərin gələcək inkişafını düzgün planlamaq, tarixi irsi qorumaq və müasir şəhərsalma standartlarına uyğun yeni nəfəs gətirməkdir.

Xüsusilə Ordubadın Baş planı xüsusi diqqət mərkəzindədir. Şəhərin özünəməxsus memarlıq üslubu, qədim məhəllələri və tarixi ruhu layihənin əsas ilham mənbəyidir. Tarixi Sərşəhər kimi ərazilərin qorunması prioritet hesab olunur. Eyni zamanda bu məkanlarda müasir şəhərsalma prinsipləri tətbiq edilərək sakinlərin rahatlığı üçün yeni həllər təklif ediləcək.

Şirkətin nümayəndəsi Angela Wiest layihə ilə bağlı bir sıra vacib məqamları açıqlayıb. O bildirib ki, baş planda yeni yaşayış məntəqələrinin salınması və müasir standartlara cavab verən mənzillərin inşası nəzərdə tutulur. Şəhərin tarixi hissələri ilə yanaşı, müxtəlif funksiyalara malik yeni binalar, turizm infrastrukturu, inzibati və ictimai binaların tikintisi də planda əks olunacaq. Bütün bu addımlar Ordubad sakinlərinin həyat keyfiyyətini yüksəltməklə yanaşı, şəhərin funksionallığını da artıracaq.



## Naxçıvanda beynəlxalq akkreditasiya tələblərinə cavab verən laboratoriya binası tikiləcək




“Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi fəaliyyətə başladığı ilk dövrlərdə muxtar respublikada mövcud olan resurslar çərçivəsində 2 istiqamət üzrə – qida və baytarlıq laboratoriyalarının fəaliyyətinin təmin edilməsi üçün işlərə başlanıldı. Hazırda agentliyin tabeliyində Naxçıvan Qida Təhlükəsizliyi İnstitutunun tərkibində həmin 2 istiqamət üzrə laboratoriyalar fəaliyyət göstərir. Lakin bu laboratoriyaların tam fəaliyyət göstərməsi üçün əlavə cihaz və avadanlıqlara ehtiyac duyulurdu”.

Bu sözləri jurnalistlərə açıqlamasında Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin aparat rəhbəri Vasif Orucov deyib.

O qeyd edib ki, həm bu iki istiqamət üzrə, həm də muxtar respublikada mövcud olmayan, lakin zəruri ehtiyac duyulan digər iki istiqamət üzrə – fitosanitar və kompleks tədqiqatlar laboratoriyasının fəaliyyəti üçün lazım olan cihaz və avadanlıqların siyahısı və texniki göstəriciləri agentlik tərəfindən müəyyənləşdirilib. Ötən və cari il ərzində qida və baytarlıq laboratoriyaları üzrə zəruri ehtiyac olan bəzi laboratoriya avadanlıqları alınıb və laboratoriyaların istifadəsinə verilib. Hazırda idxal-ixrac əməliyyatları, eləcə də digər dövlət nəzarəti tədbirləri zamanı qida və heyvan mənşəli məhsulların laboratoriya üzrə mövcud resurslar çərçivəsində bəzi analizlərin aparılması təmin edilir.

Lakin həmin laboratoriyaların yerləşdiyi binalar müasir tələblərə tam uyğun deyil, mövcud, həmçinin cari il ərzində yeni alınmış cihazlardan əlavə cihaz və avadanlıqlara ehtiyac vardır. Bununla yanaşı, fitosanitar və kompleks tədqiqatlar laboratoriyalarının da fəaliyyətə başlaması zəruridir, hansı ki bu iki istiqamət üzrə laboratoriya muxtar respublikada mövcud olmayıb.

NQTA rəsmisi bildirib ki, göstərilən ehtiyaclar nəzərə alınaraq “Naxçıvan Muxtar Respublikasının sosial iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı”nda muxtar respublikada laboratoriyalar sisteminin yaradılması məqsədilə çox əhəmiyyətli bir layihə nəzərdə tutulub: “Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi sözügedən layihənin əsas icraçılarından biri olaraq müəyyən edilib. Agentlik tərəfindən layihənin icrası istiqamətində mərhələli şəkildə müvafiq işlər aparılır. Qeyd edim ki, Dövlət Proqramı çərçivəsində ən müasir standartlara və beynəlxalq akkreditasiya tələblərinə cavab verən laboratoriya binasının tikintisi və mövcud resurslar nəzərə alınmaqla əlavə ehtiyac olan müasir cihaz və avadanlıqlarla təchiz edilməsi nəzərdə tutulur. Hazırda laboratoriya binasının tikintisinin layihələndirilməsi işləri aparılır. Bu məqsədlə satınalmalar sahəsində qanunvericiliyin tələblərinə uyğun olaraq tender keçirilmiş və uğurla tamamlanmışdır. Artıq qalib təchizatçı ilə müqavilə bağlanılıb, topoqrafiya, geologiya işləri görülüb, səhərsalma əsaslandırılması və layihələndirmə üzrə digər işlər davam etdirilir. Növbəti mərhələdə müvafiq ekspertizalar həyata keçiriləcək və layihə-smeta sənədləri hazır olduqdan sonra binanın tikilməsi ilə bağlı işlərə başlanılacaq. Layihənin icrasının 2027-ci ilin sonunadək yekunlaşdırılması və laboratoriyaların istifadəsinə verilməsi proqnozlaşdırılır. Dövlət Proqramı çərçivəsində tikiləcək yeni laboratoriya binası 3600 kvadratmetr əsas və 400 kvadratmetr yardımçı tikililərdən ibarət olacaq”.

“Binada dörd istiqamətdə – qida, baytarlıq, fitosanitar və kompleks tədqiqatlar laboratoriyası fəaliyyət göstərəcək. Bu 4 istiqamət üzrə laboratoriyanın fəaliyyət göstərməsi muxtar respublikada qida təhlükəsizliyi sisteminin tam və texniki normativ-hüquqi aktların tələblərinə uyğun qurulmasında, eləcə də muxtar respublika əhalisinin həyat və sağlamlığının qorunmasında əhəmiyyətli dərəcədə rol oynayacaq”, – deyə Vasif Orucov əlavə edib.

## *“Qərbi Azərbaycan irsi”* kitabının I cildinin təqdimatı olub



İyulun 11-də Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Qərbi Azərbaycan irsi: “Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair” hesabat və materiallar haqqında kitabın I cildinin təqdimatı keçirilib. Təqdimatdan öncə Naxçıvan Şəhər İcra Hakimiyyətinin foyesində təşkil olunan sərgiyə baxış keçirilib.




Tədbirin əvvəlində Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev, Qərbi Azərbaycan İcmasının Naxçıvan Muxtar Respublikası üzrə nümayəndəliyinin rəhbəri, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev və Qərbi Azərbaycan əsilli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Bəhruz Məmmədov çıxış edərək nəşrin mövzusunun əhəmiyyəti, məzmunu, məqsədi və aktuallığı barədə fikirlərini bölüşüblər.

Təqdimat mərasimində çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev bildirib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm addımlar atır. Qərbi Azərbaycana qayıdış konsepsiyası bu istiqamətdə strateji yol xəritəmizdir. Təqdim olunan “Qərbi Azərbaycan irsi” kitabı da bu konsepsiyanın mühüm bir tərkib hissəsidir – tariximizi sənədlərlə, faktlarla, mədəniyyət nümunələri ilə sübut edən qiymətli bir mənbədir.

Çıxışın sonunda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev kitabın ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Sonda “Qərbi Azərbaycan irsi” silsilə nəşri ilə bağlı hazırlanmış videoçarx nümayiş olunub.

## Qərbi Azərbaycanın qayaüstü təsvirləri

*Tarixi Azərbaycanın ayrılmaz parçası olan Qərbi Azərbaycan torpaqlarının böyük hissəsi sovet hakimiyyətinin yarıtmaz siyasəti nəticəsində Ermənistana verilmiş, qədim mədəniyyətlərimiz yox olmaq təhlükəsi qarşısında qalmışdır. Araşdırmalardan məlum olur ki, Qərbi Azərbaycanda insanlar Paleolit dövründən başlayaraq məskən salmışdır. Qərbi Azərbaycanın arxeoloji mədəniyyətləri Qarabağ və Naxçıvanın qədim mədəniyyətləri ilə sıx bağlı olmuşdur. Ağrı düzənliyində, İrəvan ətrafında formalaşan qədim mədəniyyətlər Naxçıvanın qədim mədəniyyətlərinin izlərini özündə əks etdirir. Bu baxımdan Qərbi Azərbaycanda aşkar olunan qayaüstü təsvirlər də Azərbaycanda yayılan qayaüstü təsvirlərin ayrılmaz bir parçası kimi ortaya çıxır. Köçmə maldarlığın inkişafı ilə bağlı olaraq Göyəm, Gəmiqaya, Basarkeçər və Kəlbəcərdə meydana çıxan qayaüstü təsvirlər vahid bir mədəniyyətin tərkib hissəsidir. Bu həm qayaüstü təsvirlərin çəkilmə texnikasında, həm də təsvirlərin repertuarında özünü aydın şəkildə göstərir.*

Qərbi Azərbaycanda qayaüstü təsvirlər başlıca olaraq iki bölgədə – Göyçə gölü hövzəsindəki Göyəm dağlarında və Zəngəzurda Basarkeçər rayonunda müxtəlif qruplar halında yerləşir. Göyəm qayaüstü təsvirləri Göyəm dağlarının ətəklərində müxtəlif bölgələrdə yayılmışdır. Göyəm dağlarının ən yüksək zirvəsi dəniz səviyyəsindən 3597 metr yüksəklikdədir. Bu zirvənin ətrafındakı vulkanik qaya parçalarının üzərində çəkilən qayaüstü təsvirlər müxtəlif məzmunludur. Bu təsvirlər ilk dəfə 1966-cı ildə qeydə alınmışdır. Basarkeçər rayonunda Dəvə dağındakı Səlim keçidi yaxınlığındakı qayaüstü təsvirlər isə 1967-ci ildə qeydə alınmışdır. Basarkeçər təsvirləri dəniz səviyyəsindən 3000-3300 metr yüksəklikdədir. İstər Göyəm, istərsə də Basarkeçər təsvirləri məzmununa və çəkilmə texnikasına görə bənzərdir. Onlar həmçinin Gəmiqaya və Kəlbəcər təsvirləri ilə oxşardırlar. Coğrafi baxımdan bir-birinə yaxın ərazidə yerləşən bu təsvirlər eyni mədəniyyətin tərkib hissəsi kimi xarakterizə edilə bilər. Qərbi Azərbaycanda yerləşən qayaüstü təsvirlər heyvan, insan və astral təsvirlərdən ibarət olmaqla olduqca müxtəlif kompozisiyada verilmişdir.

Heyvan təsvirləri arasında keçi təsvirləri üstünlük təşkil edir. Keçi rəsmləri tək, cüt və qrup halında, bəzən arxası üstə çevrilmiş vəziyyətdə təsvir edilmişdir. Keçi rəsmlərinin üstünlük təşkil etməsi insanların inancları ilə bərabər onların həyat tərzi ilə də bağlı olmuşdur. Belə ki, yabanı dağ keçiləri indi də Naxçıvan təbiətinin, Qərbi Azərbaycan təbiətinin ayrılmaz ünsürünü təşkil edir. Şübhəsiz ki, onlar qədim dövrdə daha çox olmuş və insanların həyatında müəyyən rol oynamışdır. Heyvandarlıqda keçiyə üstünlük verilməsi ehtimal ki, onun daha çox məhsuldar olması və yerli şəraitə uyğun olması ilə bağlı olmuşdur. Heyvan təsvirləri bəzən astral simvollarla birlikdə verilmişdir.

Astral rəsmlərin bir qismi günəş rəsmlərindən ibarətdir. Günəş rəsmləri dairə, dairədən ayrılan şüa, içərisində nöqtə olan dairələrlə də təmsil edilmişdir. Belə rəsmlərə və işarələrə, həmçinin Qobustan, Kareliya, Sibir və dünyanın digər yerlərindəki təsvirlərdə rast gəlinmişdir. Keçi rəsmlərinin astral simvollarla təsvir edilməsinə arxeoloji sənət əsərlərində də çox rastlanmışdır. İranda Təpə Sialk, Təpə Hissar, Təpə Giyanda, Ön Asiya və Türkmənistanın e. ə. V-IV minilliyə aid gil qabları üzərində astral simvolika ilə verilmiş keçi rəsmləri təsvir edilmişdir. İrandan aşkar edilmiş gil qablar üzərində keçi rəsmlərinin buynuzları arasında günəşi simvolizə edən konsentrik dairələr çəkilmişdir. Astral simvolika ilə təsvir edilən keçi rəsmlərinə Xocalı-Gədəbəy mədəniyyətinə aid boz rəngli qablar üzərində də rastlanmışdır. Bu təsvirlərlə Eneolit dövrünə aid təsvirlər arasında yaxın bənzərlik dini-mifoloji inancların qəbilələr arasında dərin kök saldığını və uzun müddət yaşadığını göstərir.

Türk xalqlarının mifologiyasında keçi müqəddəs hesab edilmiş, ilahiləşdirilmişdir. Dəfn zamanı qəbrə keçi buynuzu qoyulmasına I Kültəpənin Eneolit təbəqəsində rastlanmışdır. Qeyd edək ki, qəbrə keçinin çənə sümüyünün, yaxud digər sümüklərinin qoyulması adətinə Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü abidələrinin tədqiqi zamanı rastlanmış və onların müəyyən ritualla bağlı olduğu söylənmişdir. Altaylılar uşağı bəd ruhlardan qorumaq üçün zoomorfik onğonların və dağ keçisinin sümüyündən şaltraq hazırlayaraq yanından asırdılar. A.Jeremiasın verdiyi məlumata görə, Türküstanda keçi buynuzunu qəbrə qoyurmuşlar. Culfa rayonunda yerləşən Ərəfsə pirinin fasadına çox miqdarda dağ keçisi buynuzu taxılması keçinin müqəddəsliyi və ona olan inanclarla bağlıdır.

Qərbi Azərbaycan abidələrində insan təsvirləri ayrılıqda, ya da astral və heyvan təsvirləri ilə bir kompozisiyada verilmişdir. İnsan rəsmləri ikonoqrafik baxımdan bir-birindən fərqlənirlər. Onlar başlıca olaraq sxematik şəkildə təsvir edilmişdir. Təsvirlərin birində yanyana duran, əllərini yuxarıya qaldırmış insan, digərində keçilərin əhatəsində duran insan təsvir edilmişdir. İnsan rəsmlərinin rast gəlindiyi təsvirlərdən biri də ov səhnələridir. Bu baxımdan əlində oxyay tutan insan və keçi təsvirləri diqqətəlayiqdir. Basarkeçər dağlarındakı təsvirlərdən birində ovçuluq rəsmləri ilə bərabər müxtəlif heyvanların təsvirlərinə və ilan rəsminə rast gəlmək mümkündür ki, bu da ovçuluqla bağlı təsvirlərdə insanların ideoloji görüşlərinin də əks olunduğunu göstərir.

Göyəm dağlarında ov təsviri



Basarkeçər təsvirlərində ov səhnəsi



Qərbi Azərbaycandakı qayaüstü təsvirlərin bir qismi e.ə. VIII-II minilliyə aid edilmişdir. Arxeoloji araşdırmalara əsaslanaraq demək olar ki, Qərbi Azərbaycanda yerləşən qayaüstü təsvirlər Neolit və Eneolit dövründən başlayaraq çəkilmişdir. Lakin qayaüstü təsvirlərin böyük bir qismi Gəmiqaya və Kəlbəcərdə olduğu kimi Tunc dövrünün müxtəlif mərhələlərinə aiddir. Qaya təsvirlərinin az bir qismi də orta əsrlərə aiddir. Göyəm və Basarkeçər təsvirlərinin mütləq xronologiyasının müəyyən edilməsi rəsmlərin tipoloji və stillistik baxımdan geniş araşdırılmasını tələb edir.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***
**Elmar BAXŞƏLİYEV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

# Arxiv sənədləri keçmişlə gələcək arasında körpüdür

## Ulu Öndər Heydər Əliyev arxiv işinə də xüsusi önəm vermişdir

Bütün mənalı ömrünü xalqın rifahına həsr etmiş, dövlətçilik salnaməmizdə silinməz izlər buraxan dahi lider Heydər Əliyev müxtəlif sahələrdə olduğu kimi, arxiv işinə də xüsusi önəm vermiş, bu yolda bir çox işlər görmüşdür. Dövlət arxivlərinə xüsusi qayğı ilə yanaşan Ulu Öndərin hakimiyyətə gəlişi ilə arxivlər genişləndirilmiş, ixtisaslı kadrlarla təmin olunmuş, onların maddi-texniki bazası gücləndirilmişdir. Fəaliyyətinin müəyyən dövrlərində elə arxiv sahəsində çalışan Ümummilli Lider deyirdi: ***“Arxiv işi donub qalmış, dəyişməz deyil, daimi inkişaf edən, təkmilləşən, dövlətin inkişafına, sosial-siyasi qərarların qəbuluna, xalqın milli ənənələrinə uyğun vətənpərvərlik ruhunda tərbiyələnməsinə xidmət edən mühüm fəaliyyət sahəsidir. Dövlət arxivlərimizdə öz işini bilən və sevən fədakar insanlar çalışırlar və onlar öz fəaliyyətləri ilə daimi dövlətin maraqlarını qoruyurlar. Dövlət arxivləri cəmiyyətdə məsuliyyətli və şərəfli vəzifəni yerinə yetirməklə ciddi olaraq dövlətin maraqlarının qorunmasını təmin etməlidirlər”.***

Bu gün də ölkəmizdə arxiv işi dövlətimizin diqqət və qayğısı ilə əhatə olunmuş, özünün yeni inkişafına qədəm qoymaqla öz funksiyalarını yerinə yetirməkdədir. Bunu Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin və onun tabeliyində olan dövlət arxivlərinin timsalında da görmək olar. Bununla bağlı ətraflı məlumat almaq üçün Dövlət Arxiv İdarəsinin aparıcı arxeoqrafı Aygün Həmzəyeva ilə söhbətləşdik. Əvvəlcə arxiv sənədləri haqqında məlumat verən müsahibim bildirdi ki, arxiv sənədləri keçmişlə gələcək arasında körpüdür. Bu sənədlər elə-belə adi kağız parçaları deyil, hər bir sənəd bir tarixdir, hər bir sənəd bir insanın taleyidir: “Arxiv sənədlərinə baxsaq, aydın görərik ki, Ümummilli Liderimiz Heydər Əliyevin gənclik illərinin bir neçə ili bu arxivlə bağlı olmuşdur. O əmək fəaliyyətinə



SSRİ kimi nəhəng bir dövlətin Xalq Daxili İşlər Komissarlığında başlamışdır. Xüsusilə qeyd etmək istəyirəm ki, bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində mühafizə edilən qiymətli sənədlər içərisində Ulu Öndərin Naxçıvan Pedaqoji Texnikumunda təhsil alması, həmçinin Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının Mərkəzi Dövlət Arxivində elmi işçi və Dövlət Arxivinin məxfi şöbəsinin müdiri vəzifəsində çalışması ilə bağlı sənədlər qorunub saxlanılır”.

Müsahibim onu da diqqətimizə çatdırdı ki, 15 oktyabr 1941-ci ildə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının Arxiv şöbəsi üzrə 80 nömrəli əmrə əsasən və Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının razılığı ilə Əliyev Heydər Əlirza oğlu Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının Mərkəzi Dövlət Arxivinə elmi işçi, 6 iyun 1942-ci il tarixli əmrlə Mərkəzi Dövlət Arxivinin məxfi şöbəsinə müdir vəzifəsinə təyin edilmişdir. Dövlət arxivində işlədiyi müddətdə respublikada, o cümlədən Ordubad, Culfa, Əbrəqunus rayonlarında arxivlərin qaydaya salınmasında, təşkilatlarda yaranmış sənədlərin arxivə təhvil verilməsində xüsusi xidmətlər göstərmişdir.

Ulu Öndərin arxiv sahəsinə verdiyi yüksək qiymətdən söz açan müsahibim diqqətə çatdırdı ki, dahi rəhbər arxiv işinin nəzəri və praktik əsaslarının mükəmməl bilicisi kimi dövlət idarəetmə sistemində arxivlərə yüksək qiymət verməklə həm də onun inkişafına böyük töhfələr vermişdir. Onun bilavasitə rəhbərliyi ilə arxiv işinin yeni dövrün tələblərinə uyğunlaşdırılmasına start verilmiş, ölkəmizdə ilk dəfə 22 iyun 1999-cu ildə arxiv işi sahəsində fəaliyyəti tənzimləyən “Milli arxiv fondu haqqında” Qanun qəbul edilmişdir. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış bu qanun respublikamızda arxiv quruculuğunun gələcək istiqamətlərini, arxiv işinin planlı şəkildə inkişaf strategiyasını müəyyənləşdirmişdir.

Azərbaycan xalqının tarixinin ilk mənbələr əsasında öyrənilməsində arxivlərin rolunu və Milli Arxiv Fondunun müstəsna əhəmiyyətini nəzərə alan dahi rəhbərin bu sahədə idarəetmənin daha da təkmilləşdirilməsi məqsədilə 2002-ci il dekabrın 2-də imzaladığı Fərmanla Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin bazasında mərkəzi icra hakimiyyəti orqanı statusunda Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yaradıldı. Fərman respublikamızda arxiv işinin təkmilləşdirilməsində yeni perspektivlər açmaqla həm də dövlət arxivlərinin maddi-texniki bazasını möhkəmləndirmişdir. Ölkədə arxiv işi sahəsində dövlət siyasətinin həyata keçirilməsi səlahiyyəti yeni yaradılmış Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinə verilmişdir.

Ulu Öndər Heydər Əliyevin “Arxiv işinin təkmilləşdirilməsi” haqqında Fərmanından sonra Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazasında yenidən yaradılmışdır.

Ulu Öndərin arxiv işinə diqqət və qayğısının layiqli davamçısı, xalqımızın tarixi keçmişinin öyrənilməsini və dövlət müstəqilliyimizin təbliğini daim diqqət mərkəzində saxlayan Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 2020-ci il 12 fevral tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı” təsdiq olunub. Proqram ölkəmizdə arxiv işinin inkişafında yeni perspektivlər açıb. Belə ki, bu sahədəki qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması həyata keçirilir. Həmçinin xarici ölkələrdə saxlanılan Azərbaycanla bağlı sənədlərin ölkəmizə gətirilməsi, arxiv işinin İKT tətbiq etməklə modernləşdirilməsi, Milli Arxiv Fondu sənədlərinin etibarlı mühafizəsi, informasiya axtarışı imkanlarının genişləndirilməsi və istifadəsi imkanlarının artırılması məqsədilə zəruri addımlar atılır, bu sahədə konkret icraçılar müəyyən edilib.

Dahi rəhbərin bu sahəyə verdiyi yüksək dəyərin nəticəsi olaraq bu gün muxtar respublikanın hər bir bölgəsində ən müasir texnologiya və avadanlıqlarla təmin olunmuş arxiv idarələri fəaliyyət göstərir. Bu qayğının, bu dəyərin müqabilində arxiv işinin daha da inkişaf edəcəyinə, xalqımızın minillik tarixinin xüsusi mühafizəkarlıqla qorunaraq gələcək nəsillərə çatdırılacağına əminik.

**Türkanə ƏSƏDOVA**

# Hər sahədə uğur var

***Arzuların həqiqət olduğu diyar***

Ulu Öndərimiz Heydər Əliyev deyib: ***“Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var. Arzu edirəm ki, Şəruru daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz...”*** Dahi rəhbərin arzularının həqiqətə çevrildiyi məkanda – Şərurda, Onun 1992-ci ildə minlərlə insanın əhatəsində çıxış etdiyi Azadlıq meydanında dayanmışam. Və 90-cı illərin qış aylarında, soyuğun iliyə işlədiyi bir vaxtda gecədən səhərə, səhərdən axşama kimi yanan tonqalları, onların başında dayanıb Vətənin müdafiəsi növbəsinin nə vaxt onlara çatacağını gözləyən el oğullarını, işıqsız, qazsız, çörəksiz qalsa da, mətanətini itirməyən qadınlarımızı, tüstüləyən neft maşınkasında çətinliklə tapdığı bir ovuc undan bişirdiyi çörəyi səngərdəki əsgərə göndərən, özü isə ac yatan nənələrimizi düşünürəm. Bu gün hər dəfə yolum Şərura düşəndə gözəlləşən, böyüyən, gülüstana çevrilən yurdun sakini olduğumu düşünür, qürur duyuram. Bir vaxtlar burada yanan tonqalların külü var idi, indi güllər al-əlvan açıb. Köhnə asfaltdan keçən avtomobillərin təkərlərinin altından çıxan palçıqlı su üstbaşımızı bulamasın deyə çəkinə-çəkinə getdiyimiz yollar, heç bir şəraiti olmayan məktəbimizdə soyuqdan donmamaq üçün sinfə növbə ilə neft apardığımız günlər xatirəyə dönüb. İndi yanımdan ötən məktəblilərə həsədlə baxıram və sevinirəm ki, onlar yurdumuzun intibah, dirçəliş günlərinin şahidləridir. Onlar hər şəraiti olan məktəbdə təhsil alır, gülüstana çevrilən yurdda yaşayırlar.

Yurdunun saatbasaat, günbəgün bütün yönlərdə yeniləşdiyini, bütövlükdə, boy atdığını görmək dünyanın ən böyük xoşbəxtliyidir. Bütün bunları muxtar respublikamızın hər qarışında görmək mümkündür. Əslən bu rayondan olan biri üçün Şərurun illər öncəki vəziyyəti ilə müasir dövrünü müqayisə etmək heç də çətin deyil.

Rayonun ən kiçik dağ kəndlərində belə sosial problemlər öz həllini tapıb. Hər cür şəraitə malik müasirtipli təhsil ocaqları, tibb məntəqələri, mədəniyyət obyektləri ucaldılıb. Bir vaxtlar yolu, izi olmayan dağ kəndlərinə geniş, abad yollar salınıb, dünənə kimi qonşu kəndlərlə əlaqəsi olmayan sərhəd yaşayış məntəqələri indi dünyanın istənilən yeri ilə rabitə əlaqəsi yarada bilir. Yolların kənarında salınan yaşıllıqlar isə, sözün əsl mənasında, göz oxşayır. Bütün bunlar yurdumuza gözəllik verir, həm də insanlara rahatlıq gətirir.

***Abadlaşan, gözəlləşən qədim yurd***

İllər öncədən əsası qoyulan uğurlu yol bu gün də davam edir. Muxtar respublikanın ən böyük rayonu olan Şərur gündən-günə abadlaşır, gözəlliyə qovuşur. 2025-ci ilin ötən dövrü ərzində rayonda aparılan tikinti-abadlıq işlərinin gedişi və yeni tikililərin qorunub saxlanılmasına nəzarət daha da gücləndirilmişdir. Ötən müddət ərzində muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da geniş quruculuq və abadlıq işləri görülmüş, istehsal və xidmət sahələrinin, təhsil, səhiyyə ocaqlarının tikintisi və digər infrastrukturların yenilənməsi diqqət mərkəzində saxlanılmışdır. Şərur rayonunda tikintisi və yenidən qurulması davam etdirilən obyektlər “Arkoz İnşaat Şirkəti” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Şərur şəhəri, kapitan Seyidov küçəsində 5 mərtəbəli, zirzəmili, 40 mənzilli yaşayış binası, Avtovağzal binasının tikintisi, “NN Residence” MMC şirkəti tərəfindən Şərur şəhərinin girişində 6 mərtəbəli çoxmənzilli yaşayış binalarının tikintisi, Şərur rayon Yuxarı Yaycı, Axaməd kənddaxili avtomobil yollarının əsaslı təmiri, Şərur şəhərdaxili avtomobil yollarının əsaslı təmiri, “Naxçıvan Yol Təmir Tikinti İstismar” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Şərur rayon Çomaxtur kənddaxili avtomobil yollarının əsaslı təmirinə yaxın vaxtlarda başlanılacaqdır. Bütün bunlar Şərur rayonunu müasir görkəmə qovuşdurmaqla yanaşı, əhalinin rahat yaşayışına xidmət edir. Faktlardan da göründüyü kimi, Şərur rayonu inkişafının yeni mərhələsində qədəmlərini əminliklə atır. Bütün bunlar onu bir daha sübut edir ki, dövlətimiz daim öz vətəndaşının yanındadır.

Şərurdan ayrılır, rayon sakinlərinin “üst yol” dediyi Sədərəkdən Naxçıvana uzanan magistral yol ilə şəhərə qayıdırıq. Bayraq Meydanında bizi “yola salan”, qürurla dalğalanan bayrağımıza baxıram və Xalq şairi Bəxtiyar Vahabzadənin “Bayraq” şeirindəki bu misraları xatırlayıram:

*Daim ucalasan! Savaş günündə*
*Əsgər silahıyla səni tən görüm.*
*Yalnız zəfər çalmış şəhid önündə*
*Səni alqış üçün əyilən görüm.*

Ucaldı bayrağımız ən uca zirvələrə, indi o daha böyük bir qürurla dalğalanır, çünki o qalib ordunun, Müzəffər Ali Baş Komandanın əlləri ilə Şuşada, Qubadlıda, Cəbrayılda göylərə yüksəldi. Onun kölgəsində bizə qələbəni yaşadan şəhidlər uyuyur. Əsgərlərimiz onu üryanın üstündə daşıyıb işğaldan azad etdikləri torpaqlara sancdılar.

**Ramiyə ƏKBƏROVA**


















# Yusif Məmmədəliyev xalqımızın qəlbində görkəmli ictimai xadim kimi yaşayır

Görkəmli akademik, ictimai xadim, SSRİ Dövlət mükafatı laureatı Yusif Məmmədəliyev haqqında düşünərkən Ulu Öndər Heydər Əliyevin alimin 90 illik yubileyində dediyi sözləri xatırlamamaq mümkün deyil: ***"Yusif Məmmədəliyev xalqımızın tarixinə böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. O öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir. Yusif Məmmədəliyevin elmi fəaliyyəti, alimliyi həm geniş nəzəri xarakter, eyni zamanda çox əməli, tətbiqi xarakter daşıyır. Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur. Yusif Məmmədəliyev məhz belə alim olmuşdur".***

Dünyaşöhrətli akademikin Ordubad şəhərində yerləşən ev-muzeyi həmişə insanlarla dolu olur. Bu günlərdə biz də həmin muzeyə üz tutduq. Budur, Yusif Məmmədəliyevin uşaqlıq dövrünün keçdiyi evin qapısından içəri daxil oluruq. O ev ki 1975-ci ildən bəri muzey kimi fəaliyyət göstərir. Muzey, təxminən, 407 eksponatla fəaliyyətə başlayıb, hazırda 2000-dən çox eksponat muzey fondunda mühafizə olunur. Beş otaqdan ibarət olan ekspozisiya salonlarının, birincisi, Yusif Məmmədəliyevin elmi fəaliyyətini əks etdirən fotoşəkillərin nümayiş olunduğu otaqdır. Burada çoxlu fotolar və görkəmli alimin həyat və fəaliyyəti barədə ətraflı məlumatlar özünə yer alıb. Digər otağa daxil olarkən XIX əsrə aid evlərdə olduğu kimi, interyerindəki çoxlu böyük və kiçik taxçalar, onların içərisində qorunub saxlanan həmin dövrə aid müxtəliftipli məişət əşyaları insana nostalji hisslər bəxş edir. Bunların fonunda isə qulağımıza pıçıldayan musiqi sədasıdır. SSRİ Xalq artisti Rəşid Behbudovun ifasında səslənən "Ala gözlüm" mahnısının ahəngində muzey direktoru Elvira İbrahimova ilə Yusif Məmmədəliyev haqqında həmsöhbət oluruq. Müsahibim bildirir ki, artıq bir ildir, muzeydə görkəmli akademikin xoşladığı "Sənsiz" romansı, "Ölkəm", "Küçələrə su səpmişəm", "Ləpələr" və başqa mahnılar səsləndirilir. Bu isə muzeyə gələn qonaqlarda daha xoş təəssürat yaradır. Salonun sol tərəfindəki küncünə qara rəngli piano qoyulub. Bu isə Yusif Məmmədəliyevin ömür-gün yoldaşı Bilqeyis xanımdan yadigardır. Muzeyin direktoru deyir ki, onlar gənclik vaxtı bir məclisdə olarkən Bilqeyis xanım pianoda ifa edirmiş. Orada ilk tanışlıqları olub və sonradan bu görüş onların ailə həyatı qurması ilə nəticələnib. Görkəmli akademik həmişə Bilqeyis xanımın onun üçün sevdiyi mahnıları ifa etməsini istəyərmiş.

Muzeyi ziyarət edənlərdə zəngin təəssürat yaradan otaqlardan biri alimin iş otağıdır. Burada gördüyümüz masa Elmlər Akademiyasından muzeyə hədiyyə olunub. Həmin masada mürəkkəb qabı, anası Gülsüm xanımın fotoşəkli, fil fiqurları, külqabı, barometr və sair əşyaları görürük. Bu salonda böyük bir kitab rəfi də diqqətimizi çəkir. Yaxınlaşıb baxırıq. Rəfdə akademikin müəllifi olduğu və oxuduğu kitablar özünə yer alıb.

Elvira xanımla söhbətimiz zamanı da bu qənaətə gəlirik ki, doğrudan da, kimya təbiət, təbiət kimyanın özüdür elə. Eyvandan açılan xoş mənzərə Yusif Məmmədəliyev dünyasına, onun ruhuna təsirsiz qalmamışdır. Baxmayaraq ki, o, Təbiətşünaslıq fakültəsində oxumuşdu, amma məqsədi filoloq olmaq idi. Orada kimyaçı professor Sadıq Hüseynzadə ilə qarşılaşması Yusif Məmmədəliyevin arzusunu dəyişə bilib. Nəticədə, o, kimyaçı olur. İllər keçsə də, filoloq olmaq istəyi onun qəlbində arzu kimi qalır. Yəqin ki, alimin "Etiraf" adlı şeiri də belə yaranıb:

*Oxudum Şərqin ustad şairlərini –*
*Camini, Hafizi, Xəyyamı, Sədini*
*Küsdüm taleyimdən, küsdüm dünyamdan*
*Nədən şair yaratmadı məni Yaradan?..*
*...Yetirdim əlimi elmin camına,*
*Düşdüm kimyanın torgirdabına.*
*Toru doğrayıb açə bilmədim,*
*Kimya tilsimindən çıxa bilmədim.*

Amma buna baxmayaraq, deyə bilərik ki, Yusif Məmmədəliyev elmi fəaliyyətinə, ixtiralarına, kəşflərinə, yeniliklərinə görə, sözün həqiqi mənasında, kimya elminin tilsimindən kifayət qədər alnıaçıq və üzüağ çıxıb. Ordubad kimi balaca bir şəhərdə doğulub, amma okeanın o tayında Amerika kimi güclü bir dövlətin aliminin fikrinin üzərindən xətt çəkə bilibsə, Rusiya kimi inkişaf etmiş bir dövlətin aliminin nəzəriyyəsini tar-mar edə bilibsə, bu o deməkdir ki, Yusif Məmmədəliyev adı böyük hərflərlə yazılan alimdir. Onun zamanı qabaqlayan kəşfləri, ixtiraları da bunu sübut edir. Yüksək oktanlı benzin faşist Almaniyası üzərində SSRİ-nin qələbəsini təmin etdi.

Nəzərə alaq ki, o, 56 il ömür sürüb, lakin bu qısa zaman kəsiyində əsrlərə bərabər məhsuldar bir alim həyatı yaşayıb. Onun elmi fəaliyyəti, demək olar ki, bir sıra elmlərə nüfuz edə bilmişdi. "Azərbaycanda elmin inkişafı" adlı monoqrafiyasında riyaziyyatdan, fizikadan, filologiyadan yazan alimin təşəbbüsü ilə 1959-cu ildə Şamaxı astrofizika rəsədxanası yaradılmışdı. Yusif Məmmədəliyev düşünürdü: "Necə olur ki, astronom, alim Nəsrəddin Tusinin vətənində rəsədxana olmasın?" Böyük çətinliklərdən keçərək o, nəhayət, istəyinə nail olur. Rəsədxanaya Almaniyadan diametri 2 metr olan teleskop gətirilir. Bu isə Yusif Məmmədəliyevin sifarişi ilə hazırlanmışdı və Almaniyanın özündə belə bir teleskop yox idi.

Kimyaçı alimin çoxşaxəli elmi fəaliyyətinə nəzər salsaq, görərik ki, Qobustan qayaüstü təsvirlərinin tədqiqində də onun xidmətləri danılmazdır. Kimyaçı alim üçün maraqlı olan o idi ki, bu, Azərbaycanın tarixidir, öyrənilməli, tədqiq edilib, analiz olunmalıdır. Onun təşəbbüsü ilə o vaxtlar böyük bir ekspedisiya təşkil edilir və Qobustan qayaüstü təsvirləri araşdırılır. Yeri gəlmişkən qeyd edək ki, SSRİ, ABŞ, İtaliya, Fransa, İngiltərə, Polşa, Macarıstan və başqa ölkələrdə keçirilən qurultay, konqres və simpoziumlarda iştirak edən alim ölkəmizdə Əlyazmalar Fondu, Sumqayıt Kimya Elmi Mərkəzi və digər müəssisələrin təşkilində də təşəbbüskarlıq göstərmişdir.

"Lenin", "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri və müxtəlif medallarla təltif edilən Yusif Məmmədəliyev 1945-ci ildə yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının ilk həqiqi üzvlərindən biri idi. Bunu da qeyd etmək lazımdır ki, onda Yusif Məmmədəliyevin 40 yaşı hələ tamam olmamışdı. Yusif Məmmədəliyev Elmlər Akademiyasının prezidenti, universitetin rektoru vəzifələrində də çalışıb. Bu gün hərtərəfli fəaliyyət göstərən Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif elmi-tədqiqat institutlarının böyük əksəriyyəti məhz kimyaçı akademik Yusif Məmmədəliyevin Elmlər Akademiyasının prezidenti kimi çalışdığı vaxtlarda təşkil olunmuşdur. Bu da tarixi faktdır ki, o dövrdə neft emalı sənayesinin yenidən qurulmasında Yusif Məmmədəliyevin də böyük rolu olub. 1945-46-cı illərdə Sovet İttifaqının Neft Sənayesi Nazirliyinin Elmi Texniki Şurası yaradılanda bu şuraya Yusif Məmmədəliyev rəhbərlik edib.

Muzeydə Yusif Məmmədəliyev haqqında dünyanın məşhur şəxsiyyətlərinin fikirləri də özünə yer alıb. Onlardan biri böyük demokrat yazıçımız Mirzə İbrahimova məxsusdur.

1984-cü ildə muzeyin xatirə dəftərində görkəmli alimin yaxın dostu Mirzə İbrahimov yazıb: "Muzeyin hər guşəsində mən diri, ölməz Yusifi görür, onun səsini eşidirəm".

1996-cı il 10 sentyabr tarixdə akademikin anadan olmasının 90 illik yubileyi Respublika sarayında keçirilib. 2005-ci ildə anadan olmasının 100 illiyi isə ölkə Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə YUNESKO xətti ilə Parisdə YUNESKO-nun iqamətgahında qeyd olunub.

Akademikin 110 illik yubileyi də ölkə miqyasında qeyd olunub. Bu il isə 120 illik yubileyinin qeyd olunması ilə bağlı Azərbaycan Prezidentinin 2025-ci il 5 iyul tarixdə imzaladığı Sərəncam görkəmli akademikin 90 illik yubileyi keçirilərkən Ulu Öndər Heydər Əliyevin sözlərini yada salır: ***"Yusif Məmmədəliyev heç vaxt unudulmayacaq, zaman keçdikcə onun Azərbaycan xalqının tarixindəki yeri daha da açıq görünəcəkdir və insanlar, gələcək nəsillər Azərbaycanın belə şəxsiyyətləri ilə fəxr edəcəklər".***

Bu gün həm də ona sevinirik ki, 120 illik yubileyi qeyd olunan akademik Yusif Məmmədəliyev haqqında Ulu Öndər Heydər Əliyevin böyük arzularından biri həyata keçməkdədir.

**Aida İBRAHİMOVA**



## DÜNYA xəbərləri

### Misin qiyməti son 55 ilin rekordunu yeniləyib

ABŞ-nin mis idxalına 50 faizlik gömrük rüsumu tətbiq etməsi barədə xəbərlər fonunda Nyu-Yorkun “Comex” birjasında bu metalın fyuçersləri 13 faiz bahalaşaraq 1969-cu ildən bəri ən yüksək səviyyəyə çatıb.

“Financial Times” qəzetinin məlumatına görə, ticarət sessiyasının sonunda misin qiyməti yeni tarixi maksimuma – funtu 5,69 dollara yüksəlib.

ABŞ Prezidenti Donald Tramp kabinetinin iclasında mis idxalına 50 faizlik rüsumun tətbiqinin məntiqli olduğunu deyib. Daha sonra Birləşmiş Ştatların ticarət naziri Hovard Latnik CNBC telekanalına müsahibəsində tarifin cari ayın sonlarında və ya avqustun əvvəlində qüvvəyə minəcəyini bildirib.

Qeyd edək ki, Çili ABŞ-yə ən böyük mis tədarükçüsüdür. Birləşmiş Ştatlara ümumi idxalın, təxminən, 70 faizi bu ölkənin payına düşür. Həmçinin Kanada və Perudan ABŞ-yə böyük həcmdə mis idxal olunur.

### İtaliyada bir nəfər uçuş-enmə zolağında təyyarənin mühərrikinə sovrulub

İtaliyanın Berqamo bölgəsindəki “Orio al Serio” hava limanında bir nəfər havaya qalxmağa hazırlaşan təyyarənin mühərrikinə sovrularaq ölüb.

Şahidlər, təxminən, 35 yaşlarında olan həmin kişinin təhlükəsizlik işçilərindən qaçaraq havaya qalxmağa hazırlaşan təyyarəyə doğru hərəkət etdiyini deyiblər. Uzun müddət hava limanının uçuş-enmə zolağında dayanan “Volotea” aviaşirkətinin təyyarəsi ətrafında onlarla təhlükəsizlik işçisi gərgin işləyib. Həmin şəxsin hava limanına kənardan girdiyi bildirilir. Hava limanının fəaliyyəti bir saatdan çox dayandırılıb. Hava limanında 12 uçuş reysi ləğv edilib, 8 gələn reys başqa hava limanlarına yönləndirilib.

Hadisə ilə bağlı araşdırmalara başlanılıb.

### Peruda Misir sivilizasiyası ilə eyni dövrə təsadüf edən 3500 illik qədim şəhər tapılıb

Alimlər Perunun şimalındakı Barranka bölgəsində eramızdan əvvəl 1800-1500-cü illərə aid, 3500 illik qədim şəhər qalıqları aşkarlayıblar.

Arxeoloqların sözlərinə görə, bu şəhər başqa qədim mədəniyyətlərdən asılı olmayaraq, müstəqil şəkildə formalaşıb və Karal mədəniyyətinin təsiri altında inkişaf edib. Karal sivilizasiyası isə Amerikada məlum olan ən qədim sivilizasiyadır və 5 min il bundan əvvəl yaranıb. Alimlər 600 metr yüksəklikdə yerləşən təpəlik ərazidə dairəvi forma verilmiş tikili, daş və palçıqdan inşa edilmiş qədim binaların qalıqlarını aşkarlayıblar.

# Gələcəyin xilasedicilər bu günün qəhrəman şagirdləridir



Naxçıvanlı məktəblilər “Gənc xilasedici və yanğınsöndürən” yarışının qalibləri sırasında yer alıb. Qəbələ şəhərində Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Gənc xilasedici və yanğınsöndürən” XII Ümumrespublika yarışında Naxçıvan şəhər İslam Səfərli adına 1 nömrəli tam orta məktəbin şagirdləri böyük uğura imza atıblar. Muxtar respublikanı təmsil edən 7 nəfərlik komanda yarışda birincilik əldə edərək adlarını qaliblər sırasına yazıblar.

Yarışın əsas məqsədi yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsini artırmaq, məktəblilər arasında sağlam həyat tərzini təşviq etmək, təhlükəsizlik qaydalarına məsuliyyətli yanaşmanı formalaşdırmaq və gənclərdə vətənpərvərlik ruhunu gücləndirməkdən ibarətdir. Eyni zamanda tədbir müxtəlif bölgələrdən olan şagirdlər arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına da xidmət edir. Komandanın bu uğurunda məktəbin hərbi hazırlıq müəllimi Coşqun Əliyevin əməyi xüsusi qeyd olunmalıdır. O, “Şərq qapısı” qəzetinə müsahibəsində bildirib: “Bu cür yarışlar şagirdlərdə həm nəzəri biliklərin, həm də praktiki bacarıqların inkişafına səbəb olur. Belə tədbirlər gənc nəslin Vətənə, cəmiyyətə faydalı, hazırlıqlı və məsuliyyətli fərdlər kimi yetişməsində mühüm rol oynayır”.

Yarışlara hazırlıq dövründən danışan müəllim bildirdi ki, şagirdlərim əzmkarlıqla, yorulmadan məşqlərdə iştirak edir, hər gün öz üzərlərində işləyirdilər: “Bu yolda bizə böyük dəstək verən FHN əməkdaşı xilasedici Alim Əsədovun rolu danılmazdır. Onun peşəkarlığı hazırlıq prosesində əsas dayağımız oldu. Təlimlərdə məsuliyyətlə çalışan şagirdlərim yarışda qalib olaraq bu sözləri əməldə sübut etdilər.Yarış müddəti bir məqsədimiz var idi ki, qalib olmaq və Naxçıvanın, məktəbimizin adını uca tutmaq. Yarışdan əvvəl çalışırdım ki, şagirdlərimə daim psixoloji dəstək göstərim. Ən çox işlətdiyim sözlər isə bunlar idi: “Mən sizə güvənirəm, inanıram, siz burada ən güclü komandasınız”. Onlara olan etimadımı doğrultmağı bacardılar. Bu qalibiyyət zəhmətin, inamın və birliyimizin nəticəsi idi”.

Coşqun müəllim qeyd etdi ki, bir hərbi müəllimi olaraq əsas vəzifə borclarımdan biri də məhz şagirdlərə vətəni sevdirmək, onları vətənpərvər ruhda yetişdirməkdir. Həmçinin Naxçıvanı hərbi-idman oyunlarında dəfələrlə təmsil edərək qalib olmuşuq, buna misal olaraq, 2019-cu ildə “Heydər Əliyev kuboku”nu Naxçıvana gətirməyə nail olmağımızı göstərə bilərik.

Komandanın qrup rəhbəri Sadiq Bayramlı söhbətimizə qoşularaq deyir: “Sevinc hissi ilə qeyd etmək istərdim ki, bu nüfuzlu yarışda muxtar respublikamızı layiqincə təmsil edərək respublika çempionu adına layiq görüldük. Final mərhələsində Azərbaycanın müxtəlif bölgələrindən olan 12 komanda, eyni zamanda 4 beynəlxalq komanda iştirak edirdi. Yarış üç mərhələdən ibarət idi. Komandalar yarışlarda “Maneələr zolağı”, “Kombinə edilmiş yanğın estafeti”, “Axtarış-xilasetmə işi”, “Komandaların təqdimatı” və “Divar qəzeti” mərhələlərində güclərini sınayırdılar.

“Kombinə edilmiş yanğın estafeti”ndə komandamız 56 saniyəlik göstərici ilə birinci yeri tutdu. “Maneələr zolağı”nda bəzi zəifliklərimiz olsa da, ümumi nəticəyə təsir etməyən cüzi fərqlə ikinci yerdə qərarlaşdıq. Ən çətin və gərgin mərhələ olan meşə maneələri mərhələsində isə Quba komandasını 4 saniyə qabaqlayaraq birinci yeri qazandıq. Yarış boyunca komandamızla birlikdə çox yorulsaq da, məqsədimizdən yayınmadıq. Bütün maneələri əzmkarlıqla dəf edərək sonda qalib gəlməyi bacardıq. Bu uğur bir daha sübut etdi ki, Naxçıvan gəncləri Vətənə layiqli xidmətə daim hazırdır”.

Biz də məktəblilərə uğurlar arzu edirik. İnanırıq ki, bu günün istedadlı gəncləri sabahın qəhrəmanları olacaqlar.

# Naxçıvan karateçiləri “Zəfər kuboku”nda 14 medal qazanıblar



Azərbaycan Karate Federasiyası və “Arpaçay” karate klubunun təşkilatçılığı ilə uşaqlar, yeniyetmələr və gənclər arasında “Zəfər kuboku” karate turniri keçirilib. 44 günlük müharibədə qazanılan tarixi qələbəyə həsr olunmuş yarışda ölkəmizin müxtəlif bölgələrindən 800-dən çox idmançı mübarizə aparıb.

Naxçıvandan turnirə məşqçi Nicat Allahverdiyevin rəhbərliyi ilə “Qapıcıq” karate-do idman klubunun 16 idmançısı qatılıb və onlardan 14-ü mükafatçılar sırasına düşüb. Komandanın üzvləri 5-i qızıl, 3-ü gümüş və 6-sı bürünc olmaqla, ümumilikdə, 14 medal qazanıblar.

Təmsilçilərimizdən Toğrul Bayramov (14-17 yaş, -70 kq), Canər Abbaszadə (14-15 yaş, -70 kq, 1-ci liqa) Məhəmməd Quluzadə (12-13 yaş, -50 kq), Xədicə Bayramova (10-11 yaş qızlar, -36 kq, 1-ci liqa) və Nihad Əsgərli (9 yaş, -40 kq) kumite yarışlarında qızıl medala sahib çıxıblar.

Klubun digər idmançılarından Nicat Əsgərli, Yusuf Məmmədli İsa Abbasov ikinci, Kamal Allahverdiyev, Malik İbrahim, Kənan Qənbərov, Əli Rəhimov, Fuad Hüseynli və Əhməd Oruc isə üçüncü olublar.

# Aminə Novruzzadə Azərbaycan çempionu olub



Bakı şəhərində kadetlər, yeniyetmələr və gənclər arasında XXIX Azərbaycan birinciliyi keçirilib. Üç gün davam edən yarışda 93 klubdan 819 idmançı iştirak edib. Naxçıvan Muxtar Respublikasından yarışa qatılan idmançılardan yalnız biri mükafatçılar sırasına düşüb. Belə ki, məşqçi Etibar Qəribovun rəhbərliyi ilə “Ləvənt” Döyüş Klubunun heyətində 56 kiloqram çəki dərəcəsində çıxış edən Aminə Novruzzadə keçirdiyi üç görüşün hər birində tam üstünlüklə qələbə qazanaraq qızıl medala sahib çıxıb. Biz də Azərbaycan çempionu Aminə xanımın təəssüratlarını öyrəndik: “Hazırda kikboks üzrə idmanla məşğulam və bu sahə üzrə kifayət qədər qalibiyyətim var. Lakin əlavə olaraq da 8 ildir, karate idman növü ilə də peşəkar şəkildə məşğulam. Bu illər ərzində əldə etdiyim uğurların əsasında zəhmət, fədakarlıq və böyük əzm dayanır. I dərəcəli idman ustasıyam və 6 dəfə Azərbaycan çempionu olmuşam. Eyni zamanda məktəblərarası qaçış yarışlarında dəfələrlə I yerə layiq görülmüş, məktəbimizin adını layiqincə təmsil etmişəm”. Müsahibimiz qeyd etdi ki, son olaraq XXIX Azərbaycan Çempionatında iştirak edərək üç döyüş keçib və hər üç döyüşü vaxtından əvvəl böyük üstünlüklə rəqiblərini nokaut edərək başa vurub: “Bu uğurum sayəsində həm birinciliyi qazanmış, həm də Azərbaycan milli yığma komandasına daxil olunmağa layiq görülmüşəm. Bu mənim üçün böyük şərəf və məsuliyyətdir. Qazandığım nailiyyətlər təkcə mənim deyil, xüsusilə də məşqçim Etibar Qəribovun və valideynlərimin əməyi və dəstəyi nəticəsində mümkün olub. Əgər onların mənə verdiyi dəstək və inam olmasaydı, bu zirvəyə çatmaq asan olmazdı. Hər gün səylə, nizam-intizamla məşqlərimi vaxtında yerinə yetirmiş, hədəflərimə doğru addımlamışam.

Gələcəkdə daha böyük uğurlar qazanmağı, dünya arenasında ölkəmizi layiqincə təmsil etməyi və üçrəngli bayrağımızı beynəlxalq yarışlarda dalğalandırmağı qarşıma məqsəd qoymuşam. Əminəm ki, zəhmət, əzm və Vətən sevgisi ilə bu arzumu da gerçəkləşdirəcəyəm”.

Biz də gənc idmançımıza bu yolda uğurlar arzu edirik!

✍ Bülbül RÖVŞƏNQIZI

# Növbəti dəfə “SuVar!” aksiyası keçirilib



“SuVar” ekoloji aksiyası Naxçıvan şəhərinin Çənlibel məhəlləsində keçirilib.

Aksiya zamanı iştirakçılara sudan səmərəli istifadə, suya qənaət və yaşıllıqların qorunmasının vacibliyi barədə ətraflı məlumat verilib. Daha sonra ətraf ərazidəki ağaclar suvarılıb. Aksiyada ekologiya könüllüləri bu dəfə də fəallıq nümayiş etdiriblər. Aksiya çərçivəsində “Tullantıları ekoçantaya dəyiş” təşəbbüsünün də baş tutması diqqətçəkən məqamlardan olub.

Qeyd edək ki, ekoloji aksiya Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə həyata keçirilib.

Aksiyanın davamlı olaraq keçirilməsi nəzərdə tutulur.

### Bildiriş

Naxçıvan Muxtar Respublikası Aqrar Sığorta Fondu ləğv olunur.

### İtmişdir

Şərur rayonu, Muğancıq-Mehrab kənd sakini Əsgərov Cəmil Əhməd oğlunun adına olan JN-174 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kəndində yaşamış Əliyeva Lala Əbdüləli qızının adına olan JN-553A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Həmzəli kəndində Cəfərov Qərib Hüseyn oğluna məxsus JN-83A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kərimbəyli kənd sakini Əliyev Fəqani Abbasəli oğlunun adına olan JN-237A nömrəli, 10308018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Xalxal kənd sakini Babayev Fərhad Mehdi oğlunun adına olan JN-97 nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Qızılqışlaq kənd sakini Əliyev Vəli Alməmməd oğlunun adına olan 51A, 51B nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər və 32 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış İsmayılov İsrafil Niftalı oğlunun adına olan JN-2612 nömrəli, 10300058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğancıq-Müslüm kənd sakini Ağayev Rafiq Məmməd oğlunun adına olan 190A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 21(2)-ci məhəllə, döngə 1, ev 6-da yerləşən Kazımov Fəxrim Nazim oğlunun adına olan evin 14702 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kəndində yaşamış İbrahimov Süleyman Əli oğlunun adına olan JN-105A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 185
Nömrəyə məsul: Ceyhun Məmmədov, Aidə İbrahimova, Türkanə Əsədova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.